**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**ŞİRUYƏ MƏHƏMMƏDƏLİ qızı AZADƏLİYEVA**

# AZƏRBAYCANDA ALİ PEDAQOJİ TƏHSİLİN DİVERSİFİKASİYASI VƏ İNKİŞAF TENDENSİYASI (1920-1991-Cİ İLLƏR)
## (tarixi-müqayisəli və sistemli təhlil təcrübəsi)

5804.01– Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq

üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI-2018**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi pedaqogika" kafedrasinda yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Hüseyn Mustafa oğlu Əhmədov**
***pedaqogika üzrə elmlər doktoru, akademik, Əməkdar ali məktəb işçisi***

**Rəsmi opponentlər:** **Mübariz Mirəziz oğlu Əmirov**
***pedaqogika üzrə elmlər doktoru, professor***

**Hikmət Əbdül oğlu Əlizadə**
***pedaqogika üzrə elmlər doktoru, professor***

**Həsən Bayram oğlu Bayramov**
***pedaqogika üzrə elmlər doktoru***

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universitetinin "Pedaqogika və psixologiya" kafedrası**

Müdafiə "11" dekabr 2018-ci il tarixdə saat $14^{00}$ - da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki BFD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat "___"_____________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**

**elmi katibi:** **dosent R.Z.Hümbətəliyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Cəmiyyətin ahəngdar inkişafında, onun intellektual potensialının formalaşdırılmasında, maddi sərvətlərin insan kapitalına çevrilməsində təhsil, xüsusilə də ali təhsil mühüm əhəmiyyət kəsb edir. Azərbaycan təhsilinin Avropaya inteqrasiya etdiyi bir vaxtda məhz ali təhsil sosial – iqtisadi və mədəni sahələrdə davamlı inkişafa təkan verən real qüvvə hesab edilir. Bu səbəbdən də son illərdə ali pedaqoji təhsilin məzmunu milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyasına uyğun yeniləşdirilmiş, bu təhsil pilləsində əsaslı islahatlar aparılmış, ölkənin ehtiyaclarına uyğun rəqabətə davamlı kadr hazırlığı və insan kapitalının formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kurs və dövlətimizin başçısı İlham Əliyevin bu kursu uğurla davam etdirməsi sayəsində ali pedaqoji təhsilin dinamik inkişafında böyük nailiyyətlər əldə edilmiş, ali təhsilin dünya təhsil sisteminə inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsili Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biri hesab edərək demişdir: «Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır. Bilikli, savadlı uşaqlar, gənclər gələcəkdə ölkəni idarə edəcəklər. Təhsil bilik, elm, tərəqqi deməkdir. Təhsilə qoyulan vəsait ölkəmizin gələcəyinə qoyulan vəsaitdir. Bütün inkişaf etmiş ölkələrin səbəbi də məhz ziyalı təbəqəsidir, elmi texniki tərəqqidir, texnoloji yeniliklərdir. Biz bu yolu seçmişik[1]. Deməli, Azərbaycanda ali pedaqoji təhsil özünün inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə də təhsilin, o cümlədən ali pedaqoji təhsilin inkişaf metodologiyasını Ulu öndərin 1999-cu ilin martında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı yekun nitqində söylədiyi "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir

---

[1] Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı. Bakı, 2008, s. 63

inqilabi dəyişiklik ola bilməz...həyatımızın bütün sahələrində dəyişiklik təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, onillərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir qanun yaradasan" – fikirləri təşkil edir. Respublikamızda təhsil, o cümlədən ali pedaqoji təhsil sahəsində aparılan islahatlar, yeniləşmə və təkmilləşmə milli zəminə, tarixi təcrübəyə və həm də bəşəriyyətin yaratdığı təcrübəyə, təhsil-tərbiyə ənənəsinə əsaslanır. Çünki milli-ənənəvi təcrübə ümumbəşəri təcrübə ilə inteqrasiyada müasirlik mahiyyəti daşıya bilər. Müasir dövrdə Azərbaycanda ali pedaqoji təhsil quruculuğunda tarixilik, varislik, müasirlik və millilik prinsipinin gözlənilməsi, Avropa təhsil ənənələrinin öyrənilməsi və tətbiqi ilə yanaşı, 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafının əsas mərhələlərinin, xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bu sahədəki 70 illik zəngin təcrübənin ümumiləşdirilməsi ali pedaqoji təhsil sistemini mükəmməl bünövrə üzərində qurmağa kömək edə bilər. Yetmiş illik keçmiş elə bir tarixi materialdır ki, onu tənqidi mövqedən dərk edib qiymətləndirmədən ictimai özünüdərk mümkün deyil.Tarixi şüurun yeni səviyyəsi azad humanitar təfəkkürlə, köhnə stereotiplərin dağıdılması vasitəsi ilə təmin edilə bilər. Hazırda elə bir ictimai-siyasi , elmi-mədəni və pedaqoji mühit yaranıb ki, vaxtı ilə "həll olunmuş" tarixi-pedaqoji problemlərin yeni həll yollarının müəyyənləşdirilməsi olduqca zəruri və vacibdir.

Ulu öndər Heydər Əliyev demişdir: «1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir"[1]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə demişdir: «Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir". Bu baxımdan Azərbaycanda ali pedaqoji təhsilin sovet dövrü mərhələsinin müqayisəli şəkildə öyrənilməsi, təhlil edilməsi, inkişaf tendensiyalarının müəyyənləşdirilməsi, düzgün elmi qənaətlərin inkişaf etdirilməsi olduqca zəruri və vacibdir. Keçmişi bilməmək təkcə indinin dərkinə zərər gətirmir, o həm də gələcəyə nüfuz etmə təşəbbüslərini təhlükə altında qoyur.

Sovet təhsil sisteminin bütün məqsəd və məramı insanları soykökündən uzaqlaşdımaq, dili, məsləki bir olan vahid sovet xalqı formalaş-

---

[1]Müstəqil Azərbaycan Respublikasının gənclərinin birinci forumunda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışı // Azərbaycan məktəbi, 1996, №2, s. 16

dırmaq olsa da, vahid yanaşmalara və ciddi məhdudiyyətlərə baxmayaraq Azərbaycanda ali pedaqoji təhsil sahəsində diqqətəlayiq nailiyyətlər əldə edilmişdir. Ulu öndər Heydər Əliyev həmin nailiyyətləri yüksək qiymətləndirərək demişdir ki, bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azrbaycanın iqtisadiyyatı, belə güclü inkişaf edə bilməzdi, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərdə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq[1]. Faktlara diqqət yetirək: 1920-1991-ci illərdə Azərbaycanda təhsil tamamilə yeni məzmun kəsb etdi, təhsil siyasəti sosializm və kommunizm tələblərinə uyğun nəsil yetişdirməyə yönəldildi. Bu məqsədlə Respublikada geniş məktəb şəbəkəsi yaradıldı, onların tədris - maddi bazası möhkəmləndirildi, pedaqoji kadrlarla təmin edilməsi, dərslik və dərs vəsaitləri ilə təchiz olunması sahəsində müvafiq tədbirlər həyata keçirildi, məktəbyaşlı uşaqların hamılıqla icbari ümumi orta təhsilin əhatə olunmasına şərait yaradıldı. Azərbaycanda 1930-1934-cü illərdə icbari ibtidai təhsil, 1935-1958-ci illərdə 7 illik icbari natamam orta təhsil, 1959-1960-cı illərdə icbari 8 illik təhsil, 1967-1975-ci illərdə icbari ümumi təhsil həyata keçirildi.[2] 1990-cı ildə respublikada 4356 ümumtəhsil məktəbində hər il orta hesabla 1,4 milyon şagird təhsil alırdı.Onların təhsil-tərbiyəsi ilə 132 min müəllim məşğul olurdu. Məktəbəqədər tərbiyə müəssisələrində 191 min uşağın tərbiyəsi ilə 18,8 min tərbiyəçi məşğul olurdu. Həmin illərdə 231 məktəbdənkənar təhsil-tərbiyə müəssisəsini əhatə edən şəbəkə formalaşdı. Peşə təhsili sahəsində yeni inkişaf strategiyası və proqramı hazırlanıb həyata keçirildi. O dövrdə respublikada 176 texniki-peşə məktəbi fəaliyyət göstərirdi. 17 ali məktəbdə 172 ixtisas üzrə kadr hazırlığı aparılırdı. Azərbaycandan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 135 mülkü, 105 hərbi ali məktəbində 200-dən çox nadir ixtisas üzrə 17 mindən artıq azərbaycanlı mütəxəssis hazırlanmışdı. Respublikanın ali məktəblərində 70 ölkədən 1915 nəfər əcnəbi tələbə təhsil alırdı. Yaşı 15-dən yuxarı olan əhalinin hər min nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumiorta, 190-nı natamam orta təhsilli idi.[3]

---

[1] Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s.
[2] Mərdanov M.C. Azərbaycan təhsil tarixi. II cild, Bakı: Təhsil, 2011, s.13
[3] Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, s. 694

Sovet hakimiyyəti illərində, xüsusilə də 20-50-ci illərdə həm ictimai-siyasi, həm də elmi-pedaqoji mühit olduqca ziqzaqlı olmuş, Buxarinin təbirincə desək, dəhşətli ağılsızlıq baş vermiş.[1] Azərbaycan xalqının milli təfəkkürünün flaqmanları olan minlərlə ziyalı Stalin repressiyasının qurbanı olmuş, xalqın mənəviyyatına ağır zərbə vurulmuşdu. Həmin illərdə ictimai-siyasi həyatda baş verən hadisələri tədqiqatçılar belə səciyyələndirir: "İnsan beyni törədilmiş cinayətləri təsəvvürdə canlandırmaqda acizdir"[2]. Sərt və ciddi qanunların tətbiqi ilə səciyyəvi olan 30-40-cı illərdə təhsillə bağlı qəbul edilmiş qərarlar, sinfi mübarizənin gücləndirilməsi haqqında Stalin ideyası məktəb həyatında demokratik ənənələrin inkişafını ləngitməklə yanaşı, həm də yeni arzuolunmaz istiqamətin formalaşmasına səbəb oldu. Təhsil müəssisələri demokratik ənənələrdən uzaqlaşmağa məcbur oldu. "Məktəb haqqında 30-cu illərdə qəbul edilən qərarlar təkcə siyasi sənəd deyil, həm də pedaqoji prosesə partiyalı rəhbərliyi təmin edən metodoloji proqram idi".[3] Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda ilk ali pedaqoji təhsil müəssisəsi edilərkən Demokratik Respublika dövründə fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin az da olsa təcrübəsi var idi. Sadəcə bolşeviklər bu təcrübədən istifadə etmək istəmədilər Moskvada olduğu kimi, Azərbaycanda da ali təhsilin təşkili prosesi siyasiləşdirildi. Əvvəlki ali məktəb "burjua ali məktəbi" adlandırıldı, elmi- pedaqoji kadrlar isə "burjua professorları" adlandırılaraq ali təhsilin təşkilinə cəlb edilmədilər. Təqiblərə məruz qalan bəzi müəllimlər ya ölkəni tərk etdilər, ya da müəllimlikdən uzaqlaşdılar. Nəticədə ali məktəblərə və elmi idarələrə təcrübəsi və biliyi olmayan, sovet hakimiyyətinin ilk illərində qısa müddətli kurslarda hazırlanmış "yeni sovet mütəxəssisləri" elmi və pedaqoji işə cəlb edildilər. Heç bir elmi dərəcəsi, bəzi hallarda isə ali təhsili belə olmayan Moskvadan göndərilən "mütəxəssislər" ali məktəblərdə müəllimlik vəzifəsinə götürüldülər. Tələbə kontengentinin seçimində də siyasi sifariş hakim idi. Ali məktəblərə ilk növbədə fəhlə və kəndli uşaqları götürülürdü. Keçmiş milli burjuaziyanin və sovet hökumətinin varlı hesab etdiyi insan-

---

[1] Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Bakı Universiteti, 1991, s.9

[2] Azərbaycan tarixi. XX əsr. 2-ci cild. Ali məktəblər üçün dərslik. Prof. Y.B.Yusifov və prof. T.T.Vəliyevin ümumi redaktəsilə. Bakı: Çaşoğlu, 2004, 558 s.

[3] Rüstəmov F. Azərbaycanda pedaqogika elminin inkişaf yolları (1920-1991): Ped. üzrə elm. dok. ...dis. Bakı, ADPU, 2003, s.38

ların övladlarının ali məktəbə daxil olmaq hüququ məhdudlaşdırılmışdı. Türkiyədən dəvət edilən müəllimlərin çoxu az sonra müxtəlif bəhanələrlə geri qaytarıldı. Məktəb özünün keçmiş kökündən və təcrübəsindən ayrılaraq hakim sinfin xidmət vasitəsinə çevrildi. Maraqlıdır ki, ölkə vətəndaşlarının ali təhsil almasına məhdudiyyətləri nəzərdə tutan RSFSR XKS-nin 2 avqust 1918-ci il tarixdə qəbul etdiyi "Ali məktəblərə qəbul haqqında" dekretini bolşeviklər Azərbaycanda hakimiyyəti ələ aldıqdan dərhal sonra tətbiq etməyə başladılar. Bu da təbii ki, ali təhsilin inkişafında arzuolunmaz istiqamətin formalaşmasına səbəb oldu.

Azərbaycanda ali təhsilli müəllim kadrları hazırlanması tarixini öyrənmək həm sovet dövründə, həm də müstəqillik illərində aktual olmuş, Azərbaycan tarixşünaslığında, pedaqogikaşünaslığında ali pedaqoji təhsilin təşkili və inkişafı ilə bağlı maraqlı araşdırmalar aparılmış, dissertasiyalar müdafiə olunmuş, monoqrafiyalar yazılmış, dərslik və dərs vəsaitləri hazırlanmış, ayrı-ayrı təhsil müəssisələri ilə bağlı yubiley kitabları nəşr olunmuşdur. Tədqiqatların böyük bir hissəsəsi sovet hakimiyyəti illərində marksizm-leninizm ideologiyasının prinsipləri əsasında aparıldığından xeyli təhriflərə və yanlışlığa yol verilmiş, Azərbaycan xalqının ta qədimdən 1920-ci ilə qədərki təhsil tarixinin mühüm məqamları araşdırmaların predmetinə çevrilməmiş, Ə.Bəhmənyar, N.Gəncəvi, N.Tusi, Ə.Marağayi, İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, M.P.Vaqif və b. mütəfəkkirlərin təhsil aldıqları məktəb və mədrəsələrin təhsil tariximizdəki oynadığı mütərəqqi rol inkar edilmiş, cəhalət yuvası kimi səciyyələndirilmişdir. Xalqın milli – mənəvi dəyərlərindən, mentalitetindən uzaqlaşdırılması yolunda sistemli və ardıcıl siyasətin nəticəsi idi ki, tədqiqatçılar yazırdı: "İnqilabdan əvvəl Azərbaycan xalqı cəhalət pərdəsi altında inləyir, mədəniyyətsizlik içərisində boğulurdu". Və ya yüksək tribunalardan elan edilirdi ki, Azərbaycan xalqı inqilabdan əvvəl başdan-başa savadsız olmuşdur. Son araşdırmalar sübut edir ki, XIX əsrin sonlarında indiki Azərbaycan (Şimali Azərbaycan) ərazisində yaşayan ziyalıların sayı 5635 nəfər, XX əsrin əvvəllərində isə 12 mindən çox olmuşdur.[1]

Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafı ilə bağlı tədqiqatlarda sovetoloji tədqiqat prinsipləri üstünlük təşkil etdiyindən birtərəfli və pərakəndə aparıldığından, onun bütün mərhələləri, istiqamətləri eyni peşəkarlıqla araşdırılmadığından, ayrı-

[1] Mərdanov M.C. Azərbaycan təhsil tarixi. I cild, Bakı: Təhsil, 2011, 296 s.

ayrı zəruri məsələlərə siyasi mövqedən qiymət verildiyindən çox zaman obyektiv fikir söyləmək mümkün olmamış, fakt və hadisələr birtərəfli izah edilmişdir. Bu dövrdə təhsilşünaslıq dövlətin ideoloji maraqlarının ifadəçisinə çevrilmişdi. Bu səbəbdən də problemin hərtərəfli və sistemli tədqiqində mövzu ilə bilavasitə və bilvasitə bağlı olan həm tarixi, həm də pedaqoji əsərlər (dissertasiyalar, monoqrafiyalar, kitab və kitabçalar, dərslik və dərs vəsaitləri), arxiv sənədləri, statistik toplular, dövri mətbuat materialları yenidən nəzərdən keçirilmiş tədqiq və təhlil olunmuşdur.

T.Musayevanın «Birinci beşillik illərində Azərbaycanda xalq maarifi uğrunda mübarizə», «İnqilab və Azərbaycanda xalq maarifi» , M.Salahovun «Azərbaycanda ali təhsilin təşkili və inkişafı»[1], «Azərbaycanda ali təhsil: tarixi, problemləri və perspektivləri»[2], T.Baxşəliyevin «Azərbaycanda ali təhsil»[3], E.Qasımovanın «Azərbaycanda ali pedaqoji təhsil»,[4] "Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1920-1930)",[5] M.Əmrahov, M.Salahov və N.Əsədovun "Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri",[6] M.Əmrahovun "Azərbaycanda xalq maarifi müharibə illərində (1941-1945-ci illər)",[7] N.Paşayevin "Azərbaycanda sosialist mədəniyyətinin inkişafı",[8] "Sovet Azərbaycanında mədəni inkişafın tarixi oçerkləri",[9]

---

[1] Salahov M. Azərbaycanda ali təhsilin təşkili və inkişafı: Tarix üzrə fəls. dok. ...dis. Bakı: APİ, 1967, 176 s.

[2] Салахов М.Н. Высшее образование в Азербайджане: история, проблемы, перспективы. Баку: Азернешр, 1990, 288 с.

[3] Baxşəliyev T.S. Azərbaycanda ali təhsil (1966-1970-ci illər). Tarix üzrə fəls. dok. ...dis. Bakı, 1980, 170 s.

[4] Qasımova E. Azərbaycanda ali pedaqoji təhsil: Tarix üzrə fəls. dok. ...dis. Bakı: ADPU, 1992, 138s.

[5] Qasımova E. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1920-1930). Bakı, 2000, 85 s.

[6] Əmrahov M.İ., Salahov M.N., Əsədov N.N. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941-ci illər). Bakı: Mütərcim, 2007, 142 s.

[7] Амрахов М.И. Народное образование в Азербайджане в годы войны (1941-1945 гг.). Баку, АГПУ, 2004, 145 с.

[8] Paşayev N.A. Azərbaycanda sosialist mədəniyyətinin inkişafı (1920-1955). Bakı: Azərnəşr, 1957, 176 s.

[9] Пашаев Н.А. Очерки истории культурного строительства Советского Азербайджана. Баку: Азернешр, 1965, 312 с.

“Sovet Azərbaycanında mədəni inqilabın qələbəsi”,[1] İ.Məmmədovanın “Naxçıvanda pedaqoji təhsilin inkişafı”,[2] Ə.Məhərrəmovun “Azərbaycanda ali pedaqoji təhsilin inkişafı tarixindən”[3], F.Baxşəliyevin «Heydər Əliyev və Azərbaycan təhsil sistemində aparılan islahatların əsas istiqamətləri»[4] adlı tədqiqatları problemi öyrənmək baxımından maraq kəsb edir.

Bakı Dövlət Universiteti[5], Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU),[6] Kirovabad Dövlət Pedaqoji İnstitutu (indiki Gəncə Dövlət Universiteti) ,[7] Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu (indiki Bədən Tərbiyəsi və İdman Akademiyası),[8] Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu (indiki Bakı Slavyan Universiteti),[9] Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (indiki Azərbaycan Dillər Universiteti),[10] Naxçıvan Dövlət Pedaqoji İnstitutu (indiki Naxçıvan Dövlət Universiteti)[11] və Xankəndi Pedaqoji İnstitutu[12] ilə bağlı yazılan yubiley kitabları Azərbaycanda ali pedaqoji təhsilli müəllim kadrlarının hazırlanmasında ayrı-ayrı təhsil müəssisələrində həyata keçirilən elmi-pedaqoji, metodik işləri öyrənmək baxımından dəyərlidir.

Azərbaycanda ali pedaqoji təhsilli müəllim kadrlarının hazırlığının 20-50-ci illər mərhələsini öyrənmək baxımından A.Rzayevin əsərləri maraq

---

[1] Пашаев Н.А. Победа культурной революции в Советском Азербайджане. М.: Наука, 1976, 263 с.

[2] Məmmədova İ. Naxçıvanda pedaqoji təhsilin inkişafı (1917-1977-cü illər).. Bakı, Ped. üzrə fəls. dok. ...dis., APİ, 1993, 141 s.

[3] Məhərrəmov Ə. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1961-1981-ci illər). Bakı: ADPU, 1998, 127 s.

[4] Baxşəliyev F.R. Heydər Əliyev və Azərbaycan təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (problemin öyrənilməsinin müqayisəli tarixi təcrübəsi). Ped. üzrə fəls. dok. ...dis. Bakı, 2009,178 s.

[5] Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Bakı Universiteti, 1991

[6] Ali Pedaqoji İnstitutun salnaməsi, 1924, №1, s.14

[7] Bağırov B. Gəncə Dövlət Universiteti. Gəncə, 2001, 142 s.

[8] Quliyev D. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası. Bakı: Araz, 2010, 120 s.

[9] Азербайджанский педагогический институт русского языка и литературы им. М.Ф.Ахундова (1946-1996). Баку: Мутарджим, 1996, 160 s.

[10] Əliyev Ə. Azərbaycan Dillər Universitetinin tarixi. Bakı: Azərnəşr, 2005, 618 s.

[11] Məmmədov V. C.Məmmədquluzadı adına Naxçıvan müəllimlər İnstitutu. Bakı: Çənlibel, 2001, 217 s.

[12] Nəcəfov Əlizadə. Xankəndi Pedaqoji İnstitutu. Bakı: Səda, 2000, 340 s.

doğurur. Onun həm namizədlik,[1] həm də doktorluq dissertasiyası[2] ali pedaqoji təhsilin inkişafına həsr olunmuşdur. Daha çox təsviri xarakter daşıyan, dövrün siyasi tələbləri və konsepsiyaları əsasında yazılan "Azərbaycan xalq maarifi altıncı beşillikdə", "Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişafı tarixindən"[3], "Azərbaycanda ali pedaqoji təhsilin tarixi oçerkləri"[4] adlı əsərləri pedaqoji istiqaməti ilə diqqəti cəlb edir. Bu əsərlərdə ali pedaqoji təhsilli müəllim kadrları hazırlığı sahəsində dövlətin təhsil siyasəti təhlil edilir, kəmiyyətcə inkişaf statistik rəqəmlərlərlə verilir, ali pedaqoji təhsilin təşkili, məzmunu və inkişafı ilə bağlı dəyərli fikirlər irəli sürülür. Metodoloji yanaşma düzgün olmadığından xeyli təriflərə, səhv mülahizələrə yol verilir. Sovet dövründəki inkişafın konturları zəngin tarixi-pedaqoji irsimizin, təhsil-tərbiyə ənənələrimizin tənqidi üzərində qurulur. Belə təhlil və təqdimat üsulu yanlış olduğundan heç vaxt obyektivliyi və reallığı əks etdirə bilməz.

Tədqiqat işində "Sovet Azərbaycanında ali məktəbin inkişafı", "Azərbaycanda xalq maarifinin sürətli inkişafı",[5] "Azərbaycan ali məktəblərində IX və X beşilliklərdə elmin inkişafı"[6] adlı kollektiv əsərlərdən də istifadə etmişik. Bu əsərlər daha çox ümumiləşdirici xarakter daşıdığından o dövrdə mövcud olan ali məktəblər (o cümlədən ali pedaqoji məktəblər ) haqqında qısa məlumat verilir.

Sabiq təhsil naziri Misir Mərdanovun 4 cildlik " Azərbaycan təhsil tarixi" kitabı ta qədimdən bu günümüzədək Azərbaycanda təhsilin bütün pillələrinin və səviyyələrinin inkişafını özündə ehtifa edən dəyərli bir mənbədir. Mündəricatına və məzmununa görə anoloqu olmayan bu kitabın II cildi Sovet Azərbaycanında ümümi orta, peşə, orta ixtisas, ali təhsilin və pedaqoji mətbuatın, elmi-pedaqoji kitabxananın, xalq maarif muzeyinin

---

[1] Rzayev A.Q. Azərbaycanda ali pedaqoji təhsilin inkişafı tarixindən (1920-1930). Ped. üzrə fəls. dok. ...dis., APİ, 1959, s.

[2] Rzayev A.Q. Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişafı tarixindən. Bakı: Azərnəşr, 1960, 72 s.

[3] Rzayev A.Q. Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişafı tarixindən. Bakı, Azərnəşr, 1960, 72 s.

[4] Azərbaycan Dövlət Pedaqoji Universiteti (1921-2006). Bakı: Nurlan, 2006, 311s.

[5] Mehdizadə M. və b. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı: Maarif, 1980, 273 s.

[6] Алиев К.Г., Оруджев В.А. Развитие науки в вузах Азербайджана в IX и X пятилеток. Баку: Маариф, 1985, 197 с.

inkişafına həsr olunmuşdur. Burada ali pedaqoji təhsilli müəllim kadrları hazırlığını həyata keçirən təhsil müəssisələrində pedaqoji və eimi fəaliyyət vəhdətdə araşdırılır. Bu da təbiidir. Təhsil ilə elmin inkişafı bir-biri ilə sıx bağlıdır. Biri digərinin inkişafını şərtləndirir. Təhsil müəssisələrində elmi – pedaqoji tədqiqat işi aparmadan müasir tələblərə cavab verən kadr hazırlığı aparmaq mümkün deyil. Ali məktəb elminin təşəkkülü və inkişafı ardıcılliqla verilmişdir. Bir sıra elm sahələrinin yaranmasına səbəb olan ilk araşdırmaların məhz ali məktəblərdə həyata keçirilməsi əsaslandırılmışdır. Kitabda ali təhsil ocaqlarında yaranan elmi məktəblər, onların əsasını qoyan elm xadimləri, o cümlədən pedaqoq alimlər haqqında da ətraflı məlumat verilmişdir.

Tədqiqat işi sübut edir ki, Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin təşkilində və inkişafında buraxılan səhflərə, yol verilən nöqsanlara baxmayaraq, nailiyyətlərimiz kifayət qədər böyük olmuşdur. Lakin 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü, diversifikasiyası və inkişaf tendensiyaları nə pedaqogika üzrə fəlsəfə, nə də elmlər doktoru dissertasiyalarının predmeti olmamış, problemə kompleks baxış həyata keçirilməmişdir. Ona görə də "Azərbaycanda ali pedaqoji təhsilin diversifikasiyası və inkişaf tendensiyası (1920-1991-ci illərdə)" mövzusunda doktorluq dissertasiyası yazmağı vacib hesab etdik. Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixi sistemli yanaşma və tarixi-müqayisəli təhlil tələb edir. Belə sintetik və ümumiləşdirici araşdırmalar isə özündən əvvəlki tədqiqatların fonunda aparıla bilər. İndiyəqədərki araşdırmalarda Azərbaycanda ali pedaqoji təhsil əlahiddə şəkildə araşdırılır, İttifaq dövlətinin ayrı-ayrı respublikalarnda ali pedaqoji təhsilin inkişafı ilə müqayisə edilmir, yol verilən səhflərin və nöqsanların obyektiv və subyektiv səbəbləri üzə çıxarılmır. Tədqiqatımızda biz bu yolla getmiş, ali pedaqoji təhsillə bağlı fakt və hadisələri tarixilik, müasirlik prizmasından təhlil etməyə, onun digər regionlarda olan ali təhsil müəssisələri ilə oxşar və fərqli cəhətlərni müəyyənləşdirməyə, kəmiyyət və keyfiyyət xüsusiyyətlərini üzə çıxarmağa, zəngin ali pedaqoji təhsil ənənələrindən milli təhsil quruculuğunda istifadənin imkan və yollarını müəyyənləşdirməyə çalışmışıq.

**Tədqiqatın obyektini** Azərbaycanda ali pedaqoji təhsilin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin diversifikasiyası və inkişaf tendensiyası təşkil edir.

**Tədqiqatın məqsədi** Azərbaycanda ali pedaqoji təhsilin inkişafını şərtləndirən elmi, mədəni, pedaqoji, ictimai-siyasi mühiti müəyyənləş-

dirməkdən, diversifikasiyası proseslərinin metodoloji, nəzəri və praktiki problemlərini İttifaq dövləti fonunda müqayisəli şəkildə kompleks halda öyrənməkdən, yol verilən qüsurların obyektiv və subyektiv səbəblərini üzə çıxarmaqdan, zəngin ali pedaqoji təhsil ənənələrini baza dəyərləri səviyyəsinə qaldırılmasının zəruriliyini əsaslandırmaqdan, pozitiv tendensiyalardan milli təhsil quruculuğunda istifadənin imkan və yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri** aşağıdakılardır:

- Sovet hakimiyyətinin ilk illərində ölkənin sosial-iqtisadi, siyasi və mədəni vəziyyətini xarakterizə etmək, təhsil problemlərini həmin dövrdə, İttifaq dövləti şəraitində həyata keçirilən siyasətin ayrılmaz hissəsi olduğunu əsaslandırmaq;
- Azərbaycanda həyata keçirilən təhsil siyasətinin müxtəlif tərəflərinin RSFSR Xalq Maarif Komissarlığı sistemində həyata keçirilən təhsil siyasətinin inikası olduğunu, nəzəri və praktiki problemlərin həllinin strategiya və taktikasının oradan gəldiyini, nəşət aldığını əsaslandırmaq;
- Azərbaycanda ali pedaqoji təhsilin diversifikasiyası və inkişaf tendensiyasının ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatında baş verən proseslərin fonunda işıqlandırmaq, həmin proseslərin birbaşa nəticəsi kimi təhlil etmək;
- Azərbaycanın konkret-tarixi dövrlərində təhsil müəssisələrinin diversifikasiya proseslərini kəmiyyət və keyfiyyət dəyişiklikləri ilə müşayiət olunması proseslərində ümumi və spesifik amillərin yerini müəyyənləşdirmək, infrastrukturun yaradılması məsələlərinin geniş mənzərə-sini yaratmaq;
- pedaqoji kadr hazırlığının təsnifatında və strukturunda zaman və məkan amillərinin təsiri problemini araşdırmaq, elmi-pedaqoji kadr potensialının müəyyənedici olduğunu əsaslandırmaq;
- ali təhsilli pedaqoji kadr hazırlığının keyfiyyət və kəmiyyət göstəricilərinin bəzi müttəfiq respublikalarla müqayisədə aşağı olmasının obyektiv və subyektiv səbəblərini araşdırma
-1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tendensiyalarını müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək, dəyişdirmək, sistemləşdirmək məqsədi ilə tətbiq olunan nəzəri müddəaların, prinsiplərin, metodların və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın metodları**: analiz və sintez, induksiya və deduksiya, ümumiləşdirmə, təsnifatlaşdırma, riyazi-statistik, sistemli yanaşma, bioqrafik metod, tarixi-müqayisə və b.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycanda ali pedaqoji təhsilin diversifikasiyası və inkişaf tendensiyasının sosial-iqtisadi, siyasi-mədəni, pedaqoji-psixoloji, metodoloji, ideya-siyasi aspektləri ilk dəfə kompleks halında tədqiq olunur, inkişafın tendensiyaları müəyyənləşdirilir.

**Müdafiəyə təqdim olunan müddəalar**:

- tədqiqat 1920-1991-ci illərdə pedaqoji ali təhsil müəssisələrinin meydana gəlməsini, diversifikasiyasını və inkişafını izləməyə və onun sonrakı inkişafını proqnozlaşdırmağa imkan verir. 70 illik təkamül prosesinin öyrənilməsi vətən tarixinin ayrılmaz hissəsi olan mədəniyyət tariximizin daha dərindən tədqiqinə xidmət edir.

- Sovet hakimiyyəti illərində mövcud olan ali pedaqoji təhsil praktikası Azərbaycanın mədəni ənənələrinin ayrılmaz hissəsi kimi hər hansı bir cəmiyyət üçün xarakterik olan iqtisadi və sosial-mədəni şəraitin təsiri altında inkişaf etmişdir.

-ali pedaqoji təhsil tarixinin öyrənilməsi onun ayrı-ayrı dövrlərdə inkişaf tendensiyasını müəyyənləşdirməyə, onu doğuran sosial-iqtisadi, ictimai-siyasi və mədəni səbəblərin təsiri altında baş verdiyini üzə çıxarmağa imkan vermişdir.

- aparılan təhlil onilliklər ərzində baş vermiş tarixi-pedaqoji hadisələri xronoloji ardıcıllıqla tədqiq etməyə, həmin dövrlərdə təhsilin məzmunu, təşkili formaları və metodları ilə bağlı görülən işləri ümumiləşdirməyə, dövlətin ali pedaqoji təhsil sahəsində yeritdiyi siyasətin mahiyyətini üzə çıxarmağa imkan vermişdir.

-tədqiq olunan dövrdə ayrı-ayrı tarixi şəxsiyyətlərin – xalq-maarif komissarlarının, təhsil nazirlərinin, elm və təhsil xadimlərinin həyat yolunu və professional fəaliyyətini öyrənmək, onların konseptual baxışlarının mövcud şəraitin təsiri altında formalaşdığını, təkamülə uğradığını, pedaqoji təhsilin və praktikanın inkişafına töhfəsini müəyyənləşdirməyə kömək etmişdir.

- pedaqoji ali təhsilin müxtəlif mərhələlərində tez-tez baş verən diverfikasiya və birləşmə hadisələri təkcə cəmiyyətin sosial-iqtisadi vəziyyəti ilə deyil, təhsil quruculuğunda təcrübənin azlığı, təhsil siyasətini həyata keçirən orqanların rəhbərlərinin tez-tez dəyişdirilməsi və bunun nəticəsində qeyri-sabit mövqelərin mövcud olması ilə bağlı olmuşdur.

- pedaqoji ali təhsil müəssisələrinin tələbə kontingentinin 60-cı illərə qədər çətinilklə komplektləşdirilməsi respublikanın rayonlarında, xüsusilə

kəndlərində orta ümumtəhsil məktəblərinin azlığı ilə bağlı olmuşdur. Bu da ali pedaqoji məktəblərin tələbə kontingentinin tərkibinin daha çox şəhər və qəsəbə məktəblərinin məzunlarının hesabına komplektləşdirilməsinə gətirib çıxarmışdır.

- Azərbaycanda ali pedaqoji təhsilin diversifikasiyası və inkişaf tendensiyasının müəyyənləşdirilməsi ali pedaqoji təhsil nəzəriyyəsinin və praktikasının inkişaf qanunauyğunluqlarını, onun rasional pedaqoji vasitələrini, həmin vasitələrin səmərəli tətbiqinin sosial-mədəni şərtlərini üzə çıxarmağa və formalaşdırmağa imkan vermişdir.

- müharibədən əvvəlki kadr böhranı dövründə məktəblərin müəllimlərə olan ehtiyacını ödəmək istiqamətində praktiki pedaqoji axtarışların aktivləşdirilməsi nəticəsində yaradılan iki illik müəllimlər institutlarının geniş şəbəkəsinin müharibədən sonra, 50-ci illərdə respublikanın spesifik xüsusiyyətlərini nəzərə almadan demək olar ki, bütünlüklə ləğvi regionların mədəni həyatına mənfi təsir göstərməklə yanaşı kadr qıtlığının yaranmasına səbəb oldu.

- 70-80-ci illərdə ali pedaqoji məktəblərdə hazırlıq şöbələrinin yaradılması kadr hazırlığının keyfiyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Bu təcrübə 20-ci illərdə ali məktəblərdə fəhlə və kəndli gənclərin sayının artırılması məqsədilə onların ali məktəblərə qəbul edilməsi ənənəsinin yeni şəraitdə davamı idi. Bu yanlış təcrübə 20-ci illərdə olduğu kimi 70-80-ci illərdə də xeyli qabiliyyətli gənclərin ali təhsildən kənarda qalmasına səbəb olmaqla yanaşı neqativ halların armtasına şərait yaratdı.

- ali pedaqoji məktəblərin tələbələrinin həyatında maddi və mənəvi təminata, özünüinkişafa meyl, öz fərdiyyətini qoruyub saxlamaq tələbatları aparıcı olmuşdur. 70-80-ci illərdə böyük sayda məzunların təyinat yerlərinə getməməsinin, məktəbdə işləyən kişi müəllimlərin isə məktəbi tərk etməsinin səbəbi məhz maddi-mənəvi təminatların ödənilməməsilə bağlı olmuş, pedaqoji kollektivlərdə feminizasiya prosesinin getdikcə dərinləşməsilə nəticələnmişdir.

- Azərbaycanda ali pedaqoji təhsilin inkişafı tarixində avtoritarizm ilə nisbi sərbəstliyin, konservatizm ilə novatorluğun bir-birini əvəz etməsi belə bir fikir formalaşdırmağa imkan verir ki, müasir təhsil sistemində baş verən böhran keçən əsrin 70-80-ci illərində baş verən böhranın davamıdır. Təhsilin normal məcraya salınması həmin böhranı törədən amillərin aradan qaldırılmasından asılı olacaqdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Azərbaycanda ali pedaqoji təhsilin diversifikasiyası və inkişaf tendensiyasının müəyyənləşdirilməsi, keçmiş

İttifaq dövlətləri fonunda müqayisəli təhlili tarixi-pedaqoji irsi yeni elmi müddəalarla zənginləşdirə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti**. Azərbaycanda ali pedaqoji təhsilin diversifikasiyası və inkişaf tendensiyası ilə bağlı materiallardan "Pedaqogika tarixi", "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" fənlərinin tədrisində, "Azərbaycan Təhsil Ensiklopediyası"nın və "Azərbaycan Pedaqoji Antologiyası"nın tərtibində istifadə etmək olar. Zəngin ali pedaqoji təhsil ənənələrindən milli ali pedaqoji təhsil quruculuğunda istifadə imkanlarının müəyyənləşdirilməsi də tədqiqatın praktik əhəmiyyətini artırır.

**Tədqiqatın aprobasiyası** bir neçə yolla həyata keçirilmişdir:

1) tədqiqatın nəticələri ilə bağlı ADPU-nun elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş ənənəvi konfranslarda (2007- 2014), "Ali pedaqoji məktəblərdə humanitar və ictimai elmlərin tədqiqi və tədrisi məsələləri" (1996), «Azərbaycan məktəbi XXI astanasında: problemlər, perspektivlər» (1999), "Gənc tədqiqatçıların ümumrespublika" (2010), "Pedaqoji fakültənin 50 illiyinə həsr olunmuş elmi-praktik (2010), "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" (2011), «Müasir türkologiya: aktual problemlərin inkişaf istiqamətləri» (2011), "Tətbiqi dilçiliyin müasir problemləri" (2012) mövzusunda keçirilən konfranslarda məruzə və çıxışlar edilmiş, tezislər dərc olunmuşdur.

2) ADPU-da tədqiqatın nəticələri ilə bağlı bakalavr və magistratura pilləsində mühazirələr oxunmuş, seminar məşğələləri aparılmışdır.

3) Tədqiqatın ayrı-ayrı hissələri, problemin əhatə etdiyi materiallar və tədqiqatın nəticələri bütövlükdə çap edilərək aprobasiyadan keçirilmişdir. Dissertasiya ilə bağlı 1 monoqrafiya, 1 metodik göstəriş, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 31 məqalə dərc edilmişdir.

**Disseratsiyanın quruluşu:** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın elmi yeniliyi şərh olunmuş, işin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan müddəalar təqdim edilmiş, elmi – praktik əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiyanın "**XX əsrin 20-30- cu illərində Azərbaycanda pedaqoji təhsilin təşəkkülü və inkişafı"** adli birinci fəslin ilk yarımfəslində ***20-30-cu illərdə ittifaq dövlətinin ali pedaqoji təhsil siyasətinin nəzəri və***

***praktiki problemləri*** araşdırılır. Keçmiş SSRİ-nin pedaqoji, o cümlədən ali pedaqoji təhsil sahəsində siyasətinin əsas istiqamətləri dövrün ictimai-siyasi hadisələri fonunda tədqiq və təqdim olunur. Əsaslandırılır ki, pedaqoji ali məktəbin yaranması və inkişafı partiya və hökumətin yeni sosialist mədəniyyəti yaratmaq uğrunda, öz ziyalısını hazırlamaq uğrunda mübarizəsinin tərtib hissəsi idi. Müəllimlər ziyalıların böyük bir hissəsini təşkil edirdi. Müəllimlərimiz ölkədə mədəni inqilabı həyata keçirmək mümkün deyildi. Rusiyaya təhsilli, mədəni müəllim lazım idi. Bu vəzifəni yerinə yetirmək üçün ali pedaqoji məktəbi yenidən qurmaq, yəni quruluşun ruhuna uyğun təhsilin məzmununu, məqsəd və vəzifələrini müəyyənləşdirmək lazım idi. Bu son dərəcə mürəkkəb və çətin şəraitdə baş verirdi. Ali məktəb uğrunda mübarizə yeni cəmiyyət qurmaq uğrunda mübarizənin mühüm sahələrindən birinə çevrilirdi. Yeni hakimiyyət istəyinə nail olmaq üçün hər cür radikal tədbirlərə əl atırdı. Yarımfəsildə dövlətin bu sahədə həyata keçirdiyi tədbirlər tarixi fakt və hadisələrin fonunda təhlil olunur, pedaqoji təhsil sahəsində həyata keçirilən tədbirlər proqramının mahiyyətinə aydınlıq gətirilir. Müəyyənləşdirilir ki, pedaqoji institutlar 1930-cu ilə qədər öz işlərini 2 sentyabr 1922-ci ildə V.İ.Lenin tərəfindən imzalanmış «Ali təhsil müəssisələri haqqında əsasnamə», sonra isə 3 iyul 1922-ci il tarixində RSFSR Xalq Komissarları Soveti tərəfindən təsdiq edilmiş «Ali təhsil müəssisələri haqqında əsasnamə" əsasında qurmuşdur. Ali pedaqoji təhsilin məzmununu əks etdirən tədris planları və onların əsasında tərtib edilən proqramlar o dövrün inqilabi ruhunu əks etdirirdi. Bu isə onların qüsurlarını ört-basdır edirdi. Bu tədris planları geniş ixtisaslı mütəxəssislərin hazırlanmasına istiqamətlənmiş və müəllimləri fəal ictimai-siyasi fəaliyyətə hazırlamağı nəzərdə tutmuşdu - (o dövrdə müəllim kənd yerlərində yeganə ziyalı qüvvə hesab edilirdi). Bu tədris planları üçün istehsalat təcrübəsi ilə əlaqə və ölkəşünaslıq materiallarından geniş istifadə səciyyəvi idi. 1930-1931-ci illərdə universitetlərin pedaqoji fakültələrini pedaqoji institutlara çevirdilər. Dövlət Elmi Şurası belə qərara gəldi ki, hər bir pedaqoji institutun özünün gənc mütəxəssis hazırlığı üzrə istehsalat – təlim planı olmalıdır. Pedaqoji institutlarda ümumtəhsil fənlərinin sayı azaldıldı. 1927-ci ildə onların sayı 22, 1931-ci ildə isə 9-10-a endilirdi. İxtisas fənlərinə plan üzrə nəzərdə tutulmuş saatların 1/3 hissəsi ayrıldı. İctimai fənlərin sayı artdı (bunlara təhsil müddətinin 20%-i verilirdi). Pedaqoji təcrübənin vaxtı təhsil müddətinin 38-40%-ni təşkil etdi. İstehsalat təcrübəsi təlim prosesinin «başlıca elementinə» çevrildi. Kolxoz, müəssisə və mədəni-tərbiyə təşkilatlarında fasiləsiz istehsalat təcrübəsi keçirilməyə başladı ki, onun müddəti aşağı kurslarda 1 ay, yuxarı kurslarda

isə bir semestrə qədər davam edirdi. Fasiləsiz təhsili, təhsil həftəsi, il boyu iki dəfə qəbul, iki dəfə buraxılış olması qanuna salındı. Yarımfəsildə SSRİ üzrə pedaqoji təhsil müəssisələri şəbəkəsi və tələbə kontingentinin inkişaf dinamikası və elmi kadr hazırlığı müqayisəli şəkildə verilmiş və təhlil edilmişdir[1]. Əsaslandırılmışdır ki, 20-30-cu illərdə ölkədə sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, o cümlədən təhsil sahəsində keçirilən eksperimentlər prosesində bir sıra nəzəri və praktiki müddəaların, yanaşmaların yoxlanılması həyata keçirildi və sabit təhsil sistemi formalaşdı.

"***Azərbaycanda ali pedaqoji təhsil müəssisələrinin təşəkkülü mərhələsində diversifikasiya və birləşmə prosesləri***" adlı ikinci yarımfəsildə Azərbaycanda ali pedaqoji təhsil müəssisələrinin təşəkkülü mərhələsi araşdırılır, diversifikasiya və birləşmə proseslərinin obyektiv və subyektiv səbəbləri üzə çıxarılır. Əvvəlcə XX əsrin 20-ci illərində Azərbaycanda ictimai-siyasi vəziyyət araşdırılır, o dövrün hadisələrinə obyektiv münasibət bildirilir, yeni yaranan hökumətin təhsil siyasətinin mahiyyətinə aydınlıq gətirilir. Yeni hakimiyyətin Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək üçün həyata keçirdiyi tədbirlər (qısa müddətli kursların, seminariyaların, birillik ali pedaqoji kursların təşkili) araşdırılır. Daha çox diqqət Ali Pedaqoji İnstitutun təşkilinə yönəldilir.

Ali Pedaqoji İnstitutun təşkili ilə əlaqədar olaraq hələ 1920-ci ilin sonunda təşkilat komissiyası yaradılmışdı. Komissiya öz işinə 1921-ci il iyunun 9-da başladı. Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1921-ci il iyulun 13-də keçirilən kollegiyası Ali Pedaqoji Kişi İnstitutunun ilk nizamnaməsini təsdiq etdi.[2] Nizamnamədə institutun quruluşu, vəzifələri və hüquqları müəyyənləşdirilmişdi. Tədris planına uyğun olaraq institut üç ixtisas: tarix-ədəbiyyat, təbiət-coğrafiya və fizika-riyaziyyat üzrə müəllim kadrları hazırlayırdı. 1921-ci ilin noyabr ayının ortalarından 1922-ci ilin yanvarınadək institutda tələbələrin sayı 15 nəfərdən 40 nəfərə, 1922/23-cü tədris ilində 70 nəfərə çatdırılmışdı. 1923/24-cü dərs ilində isə 6 ixitsas qrupunda və hazırlıq şöbəsində 100 tələbə oxuyurdu.[3] 1925-1926-cı tədris ilinin sonunda institutda oxuyan tələbələrin sayı 170 nəfərə çatmışdı. 1925-1926-cı il məlumatına əsasən tələbələrin ümumi sayının 132 nəfəri

---

[1] Панацин Ф.Г. Педагогическое образование в СССР. М.:Педагогика, 1975, s.81

[2] Рзаев А. Из истории высшего педагогического образования в Азербайджане. Баку: Азернешр, 1957, 102 s.

[3] Azərbaycan Dövlət Pedaqoji Universiteti (1921-2006). Bakı: Nurlan, 2006, 311s.

Azərbaycandan, yerdə qalanları başqa respublikalardan idi[1]. 1921-ci il martın 1-də Bakı şəhərində Birinci Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutu açıldı.[2] Orada üç hazırlıq qrupu və iki ixitsas şöbəsi: ədəbiyyat - ictimaiyyat və təbiyyət şöbələri vardı. Məktəbəqədər Qadın Tərbiyə İnstitutunun fəaliyyəti çox davam etmədi. Azərbaycan SSR XKS 1922-ci ilin noyabrında bu institutu Azərbaycan Qadın Pedaqoji İnstitutuna çevrilməsi haqqında qərar qəbul etdi .[3] Azərbaycan Qadın Ali Pedaqoji İnstitutunun 17 nəfərdən ibarət birinci buraxılışı Azərbaycanın maarif tarixində fövqəladə bir hadisə idi. Azərbaycan SSR XMK Kollegiyasının 1923-cü il 3 aprel tarixli qərarı ilə Ali Pedaqoji Kişi İnstitutu və Ali Pedaqoji Qadın İnstitutu Azərbaycan Pedaqoji İnstitutu şəklində birləşdirild).[4]

1923-1924 – 1926/1927-ci tədris illərində Ali pedaqoji institutda 199 nəfər müəllim hazırlanmışdı ki, bunun da 173 nəfəri kişi, 26 nəfəri qadın idi.[5] Azərbaycanda ali pedaqoji institutla yanaşı, pedaqoji kadrların yetişdirilməsi işində Azərbaycan Dövlət Universitetinin xüsusi rolu olmuşdur.

1926-cı il iyulun 16-da Azərbaycan K(b)P MK-sı və Xalq Komissarları Soveti "Pedaqoji İnstitutları yenidən təşkil etmək haqqında" qərar qəbul etdilər. Kişi Ali Pedaqoji İnstitutu, Azərbaycan Qadın Ali Pedaqoji İnstitutu və Universitetin pedaqoji fakültəsi 1926-1927-ci tədris ilindən etibarən vahid bir müəssisədə, yəni Azərbaycan Dövlət Universitetinin pedaqoji fakültəsində birləşdirildi. Bu, diversifikasiyadan imtina edib monopolizmə, inhisarçılığa keçmək demək idi. O zamankı mədəni gerilik şəraitində üç professional ali pedaqoji məktəbi qeyri-pedaqoji ali məktəbə birləşdirməklə kadr hazırlığının gedişinə ciddi maneələr yaradılmışdı.

1929-cu ildə Xalq Maarif işçilərinin İxtisasartırma İnstitutu, Bakıda İkiillik Müəllimlər İnstitutu açıldı. Ona görə də Ali Pedaqoji İnstitutu yenidən təşkil etmək məqsədəuyğun sayıldı. Bu məqsədlə 1929-cu ilin

---

[1] Azərbaycan Dövlət Pedaqoji Universiteti (1921-2006). Bakı: Nurlan, 2006, 311s.

[2] Рзаев А.К. Очерки истории высшего педагогического образования в Азербайджане. Баку: Маариф, 1966, 200 с.

[3] Yenə orada, s. 52

[4] Yenə orada. s.54

[5] Azərbaycan Dövlət Pedaqoji Universiteti (1921-2006). Bakı: Nurlan, 2006, 311 s.

payızında Xalq Maarif Komissarlığı Azərbaycan XKS-nə Pedaqoji İnstitutun yenidən yaradılması barədə müraciət etdi. Respublika hökuməti Bakı Dövlət Universitetinin pedaqoji fakültəsinin bazası əsasında müstəqil Azərbaycan Dövlət Pedaqoji İnstitutu yaratmaq qərara alındı. 1930-cu il iyunun 19-da "Azərbaycan SSR ali məktəblərini və ali texniki məktəblərini yenidən təşkil etmək və rayonlaşdırmaq, onları müvafiq təsərrüfat orqanlarının və xalq maarif komissarlıqlarının ixtiyarına vermək haqqında" qərar qəbul etdi.[1] Universitet bağlandı, onun fakültələrindən hər biri müstəqil institut oldu. Universitet öz statusunu itirdi, onu ləğv etdilər.

Azərbaycan Xalq Maarif Komissarlığının 1930-cu il 18 yanvar tarixli 5 saylı əmri ilə Ali Pedaqoji İnstitutun Bakı Universitetinin tərkibinə verilmiş professor-müəllim heyəti ilə yanaşı, universitetin pedaqoji fakültəsində çalışan elmi-pedaqoji kadrların xeyli hissəsi APİ-yə müəllimliyə cəlb olundu.[2] 1930-cu ildən başlayaraq ADPİ öz inkişafının ikinci mərhələsinə daxil oldu və respublikada elmi-pedaqoji fikrin başlıca mərkəzinə, müəllim kadrları hazırlayan əsas təhsil ocağına çevrildi.[3]

1930-cu ildə Bakıda ZSFSR hökumətinin qərarı ilə Bakıda Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu açıldı. 1936-cı ildə Zaqafqaziya federasiyasının ləğv olunması ilə əlaqədar olaraq 1936-cı ildə ZDBTİ-nin adı dəyişdirilərək Az.DBTİ adlandırıldı. 1932-ci ildə respublikada ali məktəblərin sayı 19-a çatmış, onlarda təhsil alan tələbələrin sayı isə 10,6 min olmuşdu. Bunların 50 faizdən çoxunu azərbaycanlılar təşkil edirdi.[4]

Bakı Dövlət Universiteti 1930-cü ildə müstəqil sahə institutlarına bölünəndə qiyabi pedaqoji fakültə ayrıca Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutuna çevrildi. Müstəqil fəaliyyət göstərdiyi illərdə orada 4 ixtisasdan əlavə, kimya-biologiya şöbəsi də təşkil edildi. 1931/1932-ci tədris ilində institutda daha üç yeni ixtisas üzrə şöbələr yaradıldı və təhsil

---

[1] Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı: Maarif, 1980, 273 s.

[2] Əmrahov M.İ., Salahov M.N., Əsədov N.N. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941-ci illər). Bakı: Mütərcim, 2007, 142 s.

[3] Sadıqov Ş.A., Əzimov N.S., Salahov M.N. Azərbaycan Dövlət Pedaqoji İnstitutu, 50 ildə. Bakı: APİ, 1972, 130 s.

[4] Алиев К.Г. и др. Развитие высшей школы в Советском Азербайджане. К.Г.Алиев, А.М.Атакишиев, Т.Ш.Бахшалиев и др.) Под обшей ред. Алиева К.Г. Баку: Маариф, 1984, с.229

alanların sayı 3 mindən artıq oldu. 1932-ci ildə Qiyabi Pedaqoji İnstitut Xalq Maarifi üzrə Kadrların İxtisasını Artırma İnstitutunun tərkibinə daxil edildi. Hər iki institut isə 1933-cü ilin əvvəlində APİ-yə birləşdirildi.1934-cü ildə Universitetin bərpa olunması böyük mədəni hadisə idi. Rus dili müəllimləri hazırlamaq üçün Bakıda müstəqil institut – M.F.Axundov adına Müəllimlər İnstitutu təsis edildi.[1]

30-cu illərin əvvəllərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi fakültələri bazasında 1936-cı ildə müstəqil Qiyabi Pedaqoji İnstitut yaradıldı. 1936/37-ci tədris ilində qiyabi təhsilə cəlb olunan tələbələrin sayı 4 min nəfərə yaxın idi. Azərbaycan Xalq Komissarları Soveti obyektiv vəziyyəti nəzərə alaraq 1937-ci ildə qiyabi şöbənin müstəqil Qiyabi Pedaqoji instituta çevrilməsi haqqında xüsusi qərara qəbul etdi və APİ-də iki ali məktəb fəaliyyət göstərməyə başladı.[2]

Orta məktəblərdə xarici dil fənlərindən dərs deyən yüksək ixitsaslı müəllimlər hazırlamaq üçün Azərbaycan XMK-nın 1937-ci il 5 mart tarixli əmri ilə V.İ.Lenin adına APİ-də və İkiillik Müəlilmlər İnstitutunda həmin ilin sentyabr ayının 1-də xarici dillər fakültəsi və kafedrası açıldı.[3] Azərbaycan XMK-nın 1938-ci il 2 noyabr tarixli əmri ilə APİ-nin nəzdindəki İkiillik Müəllimlər İnstitutunu ayırıb müstəqil instituta çevirdi.

Diversifikasiya və birləşmə proseslərinin az qala xroniki hala keçməsinə baxmayaraq, nəhayət 30-cu illərin əvvəllərindən başlayaraq pedaqoji ali məktəblərin nisbətən sərbəst fəaliyyətinə başlanıldı. Müharibə bu sabitliyi pozdu.

“***Azərbaycanda milli elmi-pedaqoji kadr potensialının yaradılması sahəsində ilk addımlar***” adlı üçüncü yarımfəsildə XX əsrin 20-30-cu illərində Azərbaycanda milli elmi-pedaqoji kadr potensialının yaradılması sahəsində ilk təşəbbüslər təhlil olunur, bu sahədəki çətinliklərin səbəbləri araşdırılır. Əsaslandırılır ki, o dövrdə pedaqoji təhsil müəssisələrinin professor-müəllif heyətini komplekstləşdirmək işi ilə bilavasitə Xalq

---

[1] Азербайджанский педагогический институт русского языка и литературы им. М.Ф.Ахундова (1946-1996). Баку: Мутарджим, 1996, с.8

[2] Azərbaycan Dövlət Pedaqoji Universiteti (1921-2006). Bakı: Nurlan, 2006, s.47

[3] Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı: Maarif, 1980, s. 230

Maarif Komissarlığı məşğul olurdu. Araşdırmalar göstərir ki, onlar bu işə çox ciddi yanaşırdılar.

Xalq Maarif Komissarlığının təşəbbüsü ilə istedadlı milli elmi-pedaqoji qüvvələrin ali məktəblərə cəlb edilməsi nəticəsində Ali Pedaqoji İnstitutun müəllim heyətinin tərkibi azərbaycanlı gənc müəllimlər hesabına daha da möhkəmlənirdi.

Azərbaycan Dövlət Universitetinin 1929-cu il mayın 18-də Respublika Xalq Maarif Komissarlığı nəzdindəki Dövlət Elmi Şurası "Elmi işçilər hazırlamaq haqqında "əsasnamə"ni təsdiq etdi. Bu əsasnamə ilə nəzərdə tutulurdu ki, universiteti qurtarmış şəxs elmi işçi – aspirant ola bilər. Aspiranturada təhsil müddəti 3 il olduğundan aspirant həmin müddət ərzində elmi işini hazırlamalı və fakültənin açıq elmi iclasında onu müdafiə etməli idi. Aspirant elmi işlə yanaşı, təhsil aldığı dövr ərzində rus dilini, azərbaycanlı olmadığı təqdirdə Azərbaycan dilini, həm də milliyyətindən asılı olmayaraq xarici dillərdən birini öyrənməli idi. Milliyətcə azərbaycanlı olan tələbələri aspiranturaya daxil olmağa hazırlamaq məqsədi ilə 1929-cu ildə Universitetdə "irəli çəkilmiş tələbələr" institutu təşkil edilmişdi.[1]

Elmi-pedaqoji kadrların hazırlanması, o cümlədən aspirantura vasitəsilə hazırlanması məsələləri üzrə ən mühüm göstərişlər ÜİK (b)P MK-nın "Elmi kadrlar haqqında" 26 iyul 1929-cu il tarixli və SSRİ XKS-nin "Elmi dərəcələr və elmi adlar haqqında" 20 mart 1937-ci il tarixli qərarlarında və digər sənədlərdə verilmişdi. Həmin qərarlara müvafiq olaraq, respublikada aspirantura vasitəsilə elmi-pedaqoji kadr hazırlanması getdikcə genişlənir və təkmilləşdirilirdi.[2]

30-cu illərin ikinci yarısında elmlər namizədi alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə disseratsiya müdafiə edən şəxslərin sayı xeyli artdı. Məsələn, əgər beş il ərzində (1934/35-1939/40-cı tədris illərində) V.İ.Lenin adına APİ-də 19 nəfər namizədlik dissetasiyası müdafiə etmişdisə, 1939/40-1940/41-ci tədris illərində onların sayı 23 nəfər olmuşdu. Azərbaycan ali məktəblərinin elmi-pedaqoji kadrlarının ümumi sayı 1939/40-cı tədris ilində 1933 nəfər (o cümlədən 9 nəfər qadın) təşkil edirdi ki, bu da 1927/28-ci tədirs ilində olduğundan 3,4 dəfə çox idi.[3] 40-cı illərin

---

[1] Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı: Maarif, 1980, s. 232

[2] Yenə orada. s.233

[3] Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı: Maarif, 1980, s.234

əvvəlində APİ-də vəziyyət aşağıdakı kimi idi: 8 professor, 57 dosent, 175 nəfər baş müəllim, müəllim və assistent.[1] Şübhəsiz, bu göstəricilər də aşağı idi. İnstitutda bu tədris ilində işləyən 240 nəfər professor-müəllim heyətinin ancaq 109 nəfəri azərbaycanlı idi. İnstitutun 31 kafedrasından 14-ə qeyri azərbaycanlılar rəhbərlik edirdilər.[2]

Yarimfəsildə Azərbaycanda pedaqogika üzrə elmi-pedaqoji kadr hazırlığında müstəsna xidmətləri olan prof.Ə.Seyidovun, akademik M.Mehdizadənin, prof.M.Muradxanovun, prof.B.B.Komarovskinin elmi-pedaqoji fəaliyyətləri əhatəli şəkildə tədqiq və təhlil olunur.

Dissertasiyanın ikinci fəsli **" XX əsrin 40-50- ci illərində ali pedaqoji təhsilin problemləri"** adlanır. Fəslin ***"Müharibə və bərpa dövründə SSRİ-də ali pedaqoji təhsi"*** adlı ilk yarımfəslində keçən əsrin 40-50- ci illərində keçmiş İttifaqda ali pedaqoji təhsilinin inkişafının əsas istiqamətləri araşdırılır. Əsaslandırıır ki, 50-ci illərin sonunda 60-cı illərin başlanğıcında SSRİ-də təhsil sisteminin, o cümlədən pedaqoji təhsilin yenidən qurulması haqqında təşkilati-pedaqoji tədbirləri həyata keçirmək üçün hüquqi baza hazırlandı. Bu, özünün müsbət nəticələrini sonrakı onilliklərdə göstərdi.

***"Azərbaycanda ali pedaqoji təhsil: tənəzzül və tərəqqi tedensiyaları"*** adlı ikinci yarımfəsildə əaslandırılır ki, müharibə illərində Azərbaycanda ali pedaqoji təhsil müharibə şəraitinin qanunlarına uyğun inkişaf edirdi.

1941-cı ildə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutu Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsinə çevrildi. 1936-cı ildə APİ-nin xarici dillər fakültəsinin bazası əsasında təşkil edilmiş Xarici Dillər İnstitutu isə müvəqqəti olaraq yenidən APİ-nin xarici dillər fakültəsinə çevrildi. Müharibə əməliyyatları genişlənib ciddi xarakter aldıqca respublikanın bir çox ali məktəblərinin, o cümlədən APİ-nin müstəqil fəaliyyəti qeyri-mümkün hesab olundu. Ona görə də APİ ADU ilə birləşdirildi. Bu, 30-cu illərin ayırmaq və birləşdirmək kimi zərərli təcrübəsinin yeni şəraitdə təkrarı idi.1942-ci ilin sonu 1943-cü ilin əvvəllərində müharibənin gedişində əsaslı dönüş yaranması müvəqqəti olaraq müvafiq ali məktəblərin tərkibinə verilmiş sahə institutlarının ayrılıb yenidən müstəqil təhsil müəssisəsi kimi fəaliyyət göstərmələrini gündəmə gətirdi. Azərbaycan Dövlət Pedaqoji İnstitutu 1943-cü ilin oktyabr ayının

---

[1] Sadıqov Ş.A., Əzimov N.S., Salahov M.N. Azərbaycan Dövlət Pedaqoji İnstitutu, 50 ildə. Bakı: APİ, 1972, s.48

[2] Yenə orada. s.49

1-dən etibarən ADU-nun tərkibindən ayrıldı, müstəqil ali təhsil ocağı kimi beş fakültə: 1) fizika-riyaziyyat; 2) təbiət; 3) tarix; 4) dil-ədəbiyyat; 5) xarici dillər ilə fəaliyyətini davam etdirməyə başladı.

Azərbaycan Dövlət Pedaqoji institutunu rektoru tez-tez dəyişən ali məktəblər kateqoriyasına aid etmək olar. 1930-1950-ci illərdə onun rektoru 12 dəfə dəyişilmişdir ki, bu da təbii ki, tədrisin təşkilinə mənfi təsir göstərməyə bilməzdi.

1943-cü ildə Kirovabad ikiillik müəllimlər institutunun bazasında ali pedaqoji institut yaradıldı. 1943-1944-cü tədris ilində Quba, Ağdam və Qazaxda müəllimlər institutu açıldı. Həmin dövrdə Nuxa Müəllimlər İnstitutunda 197 nəfər, Quba Müəllimlər İnstitutunda 175 nəfər, Qazax Müəllimlər İnstitutunda 226 nəfər, Naxçıvan Müəllimlər İnstitutunda 150 nəfər, Şuşa Müəllimlər İnstitutunda 345 nəfər, Ağdam Müəllimlər İnstitutunda 97 nəfər, ümumiyyətlə adı çəkilən altı müəllimlər institutunda 1091 nəfər təhsil alırdı.[1]

Müharibə illərində ali pedaqoji məktəblərin tələbə kontingentini komplektləşdirmək problemi yaranmışdı. Sov.İKP MK-nın və SSRİ XKS qəbul etdikləri qərara əsasən (may 1942-ci il) orta məktəbi əla və yaxşı və əla qiymətlərlə qurtaranlar imtahansız ali məktəblərə qəbul olunurdular. Ali pedaqoji məktəblərə kömək üçün komissiyalar yaradılırdı, pedaqoji peşə mətbuatda geniş təbliğ olunurdu. Görülən tədbirlər nəticəsində ali pedaqoji məktəblərə qəbul bir qədər artdı.[2] Müharibə ali qiyabi pedaqoji təhsilə də ziyan vurdu. SSRİ XKS 1943-cü ilin dekabrında "Qiyabi pedaqoji təhsil sistemini möhkəmləndirmək tədbirləri haqqında" qərar qəbul etdi. Qərara əsasən müvafiq pedaqoji hazırlığı olmayan şəxslər müəyyən olunmuş müddətdə qiyabi və axşam pedaqoji tədris müəssisələrini bitirməli idilər.[3] Qiyabi təhsil məktəbdə artıq işləyən müəllimlərin ümumtəhsil səviyyəsini yüksəltmək vasitəsi idi. Həmin qərarda qiyabi şöbələrin yeni şəbəkəsi təsdiq olundu və onlarda oxuyacaq tələbələrin kontingenti artırıldı, qiyabi

---

[1] Амрахов М.И. Народное образование в Азербайджане в годы войны (1941-1945 гг.). Баку: АГПУ, 2004, с. 115

[2] Очерки истории школы и педагогической мысли народов СССР 1941-1961 гг. Под ред. Ф.Г.Паначина, М.Н.Колмоковой, З.И.Равкина. М.: Педагогика, 1988, 272 с.

[3] Очерки истории школы и педагогической мысли народов СССР 1941-1961 гг. Под ред. Ф.Г. Паначина, М.Н.Колмоковой, З.И.Равкина. М.: Педагогика, 1988, с. 51

pedaqoji institut bərpa edildi.[1] 1944-cü ildə qiyabi pedaqoji institutun 1981 tələbəsi var idi.[2]

Müharibədən sonra məktəblərimizdə, xüsusən fizika, riyaziyyat, rus dili və xarici dil müəllimlərinə böyük ehtiyac hiss edilirdi. Xalq maarifi sahəsində qarşıda duran vəzifələr "1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında" Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi qanunda öz konkret ifadəsini tapmışdı. Bu qanunda beşillik ərzində orta məktəblərlə yanaşı, ali pedaqoji məktəblərin də inkişaf etdirilməsi nəzərdə tutulurdu. Qanunda beşillik ərzində ali pedaqoji məktəblərə 12,1 min nəfər tələbənin qəbul edilməsi və 6,3 min nəfər müəllimin hazırlanması nəzərdə tutulmuşdu.

1946-cı ildə Bakıda Azərbaycan Dövlət iki illik müəlilmlər institutu təşkil edilir. İnstitut SSRİ XKS-nin 2 fevral 1946-cı il sərəncamı və Azərbaycan SSR XKS-nin 15 may 1946-cı il qərarına əsasən təşkil edilir.[3] İnstitut milli məktəblər üçün rus dili və ədəbiyyatı müəllimləri hazırlayırdı. 1946-1947-ci tədris ilində instituta 108 nəfər qəbul edilmişdi.

Müharibənin qurtarması ilə əlaqədar olaraq ali məktəblərdə oxuyan tələbələrin sayı ordu sıralarından qayıdanlar hesabına sürətlə artmağa başladı. Təkcə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda 1946-1947-ci ildə tələbələrin sayı 1400 nəfərə çatdı. Respublikanın ali pedaqoji məktəblərində oxuyanların ümumi sayı isə 3500 nəfərdən artıq idi.

Ali pedaqoji təhsil şəbəkəsinin genişlənməsi sayəsində respublikamızın orta məktəblərində çalışan müəllimlərin tərkibi xeyli dəyişdi. Belə ki, 1946-cı ildə respubilkamızın bütün orta məktəblərində çalışan 21873 müəllimdən 2288 nəfəri ali təhsilli olduğu halda, 1950-ci ildə müəllimlərin ümumi sayı 25377 nəfərə, ali təhsillərinin sayı isə 3976 nəfərə çatdı. 1955-1956-cı tədris ilində orta məktəblərdə çalışan ali təhsilli müəllimlərin sayı 9455 nəfərə çatdı.

Vaxtilə başqa ali məktəblərə birləşdirilmiş institutlara müstəqillik verilməsi prosesi davam edirdi. ADPİ-nin xarici dillər fakültəsi 1948/49-cu

---

[1] Xasməmmədov T.Q. Sovet Azərbaycanında qiyabi ali pedaqoji təhsilin inkişafına dair. ADQPİ-nin əsərləri, 1958, V cild, s.

[2] Sadıqov Ş.A., Əzimov N.S., Salahov M.N. Azərbaycan Dövlət Pedaqoji İnstitutu, 50 ildə. Bakı: APİ, 1972, s.95

[3] Азербайджанский педагогический институт русского языка и литературы им. М.Ф.Ахундова (1946-1996). Баку: Мутарджим, 1996, 160 с.

dərs ilindən etibarən müstəqil Xarici Dillər Pedaqoji İnstitutuna çevrildi.[1] 1952-1953-cü tədris ili sentyabrın 1-dən M.F.Axundov adına müəllimlər institutu M.F.Axundov adına pedaqoji rus dili və ədəbiyyatı institutuna çevrildi.

1953-cü ildə institutda 445 nəfər tələbə oxuyurdu. 221 nəfər azərbaycanlı, 224 nəfər qeyri millətlərin nümayəndələri idi.[2] İnstituta qəbul ildənilə artırdı. 1955-ci ildə 1063 tələbə, 1956-cı ildə 1175 tələbə oxuyurdu.

Respublikanın bütün ali məktəblərində 50-ci illərin ortalarından başlayaraq struktur dəyişiklikləri edildi. 1954-cü ilin oktyabr ayında ADPİ-də yeni bədən tərbiyəsi fakültəsi yaradıldı. Pedaqoji institutlar 1956/57-ci tədris ilindən beş illik təhsil müddətinə keçdi və fakültələrin ixtisaslaşdırma təmayülü genişləndirildi. İnstitutda tarix-filologiya, fizika-riyaziyyat, ədəbiyyat-coğrafiya və bədən tərbiyəsi fakültələri (sonuncuda təhsil 4 il idi) yenidən təşkil olundu. İnstitutu bitirən gənclər təhsil müddəti ərzində iki ixtisas qazanmaq imkanı ələ etdilər.

İbtidai məktəblər üçün müəllimlər hazırlanması işini yaxşılaşdırmaq məqsədilə 1958/59-cu dərs ilində institutda ibtidai təhsil pedaqogikası və metodikası fakültəsi açıldı. 1960/61-ci dərs ilində institutun nəzdində axşam şöbəsi və 1962-ci ildə ibtidai təhsil pedaqogikası və metodikası fakültəsi nəzdindəki məktəbəqədər tərbiyə şöbəsi əsasında yeni fakültə yaradıldı.

SSRİ hökuməti 1959-cu il martın 14-də "Azərbaycan SSR-də ali tədris müəssisələrinin şəbəkəsini qaydaya salmaq haqqında" qərar qəbul etdi.[3] Belə "qaydaya salmaq" nəticəsində ali məktəblərin birləşdirilməsi, fakültələrin digər institutlara və bununla əlaqədar tələbələrin də başqa tədris müəssisələrinə verilməsi prosesi başlandı. Bu bədnam qərarın qəbulundan yeddi ay keçəndən sonra 1959-cu ilin oktyabrında Azərbaycan KP MK və respublikanın Nazirlər Soveti "Ali təhsilin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdi.[4] Bu qərarda SSRİ hökumətinin yuxarıda qeyd etdiyimiz qərarında göstərilən "qaydaya salma" motivləri:

---

[1] Əliyev Ə. Azərbaycan Dillər Universitetinin tarixi. Bakı: Azərnəşr, 2005, s.11

[2] Азербайджанский педагогический институт русского языка и литературы им. М.Ф.Ахундова (1946-1996). Баку: Мутарджим, 1996, с.12

[3] Алиев К.Г. и др. Развитие высшей школы в Советском Азербайджане. К.Г.Алиев, А.М.Атакишиев, Т.Ш.Бахшалиев и др.) Под общей ред. Алиева К.Г. Баку: Маариф, 1984, 414 с.

[4] Yenə orada. s.36

ali tədris müəssisələrinin işində və təşkilində ciddi nöqsanlar və onları aradan qaldırmaq üçün konkret yollar qeyd olunur. Bəzi ali məktəblərin "kiçik", "xırda" olması bəhanəsilə onları bağlamaq və birləşdirmək siyasətinə ümumi icbari səkkizillik təhsilin həyata keçirildiyi bir dövrdə heç cürə haqq qazandırmaq olmaz. Nəticədə nə baş verdi? Müəllim "qıtlığı" yarandı və həmin ali məktəblər bir müddətdən sonra yenə də müstəqil ali məktəblər kimi bərpa olundular. Kadr hazırlığında uzaqgörən siyasətin omlaması Azərbaycanda ali tədris müəssisələrini, o cümlədən pedaqoji ali məktəbləri birləşdirmək və ayırmaq kimi zərərli bir ənənənin yaranmasına gətirib çıxarmışdı.

***"Respublikada elmi-pedaqoji kadr hazırlığında milli meylin güclənməsi"*** adlı üçüncü yarımfəsildə əaslandırılır ki, Azərbaycanda aspiranturanın inkişafına və gələcək müəllimlərin hazırlığının yüksəldilməsinə 22 may 1948-ci ildə SSRİ Nazirlər Sovetinin «Aspirantura yolu ilə elmi-pedaqoji və elmi kadrların hazırlanması haqqında» qərarının böyük təsiri oldu. Hökumət nazirliklərdən aspiranturaya qəbul ediləcək namizədlərin seçilməsinə diqqətlə yanaşmağı, dissertasiya mövzularının seçilməsinə diqqəti artırmağı, hər tədris ilinin axırında aspirantların attestasiyasını keçirməyi, aspirantların fərdi iş planlarında pedaqoji praktikanın keçirilməsini, aspirantlara rəhbərliyin gücləndirilməsini, elmi rəhbərlərin və institutların kafedralarının elmi-pedaqoji işçilərin hazırlığında məsuliyyətini artırmağı tələb etdi. Elmi dərəcəli olmayan, amma dissertasiya üzərində işləyən ali məktəb müəllimlərinin dissertasiyalarını tamamlamaq üçün ölkənin ali məktəblərinə və elmi-tədqiqat müəssisələrinə maaşı və iş ştatı saxlanılmaqla bir il müddətinə azad edilməsinə icazə verdi. Bu qərar elmi-pedaqoji kadrların hazırlığını xeyli genişləndirməyə və ölkənin ali məktəblərinə hər il xeyli sayda aspirantları və müəllimləri disseratsiyalarını yekunlaşdırmaq üçün ezam etməyə imkan verdi.

1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının təşkil edilməsi respublikada elmin inkişafında çox böyük hadisə oldu. Akademiya elmi-pedaqoji kadrlar hazırlanması sahəsində ən mühüm mərkəzlərdən birinə çevrildi. Ali məktəblərdə aparılan pedaqoji işdə Elmlər Akademiyasının və digər elmi müəssisələrin görkəmli alimləri fəal iştirak edirdilər. Respublikada elmi-pedaqoji kadrların hazırlanması genişləndi və keyfiyyətcə daha yüksək səviyyəyə qalxdı.

Respublikanın ali məktəblərində aspirantların sayı ildən-ilə artırdı. Əgər 1950-ci ildə bunların sayı 191 nəfər, 1955-ci ildə 215 nəfər idisə, 1960-cı ildə artıq 471 nəfərə çatmışdı. Bütün bunlar təkcə professor-müəllim kadrlarının sayınını artmasına deyil, həm də onların elmi

səviyyələrinin yüksəlməsinə kömək edirdi. Məsələn, 1946-1950-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun 29 əməkdaşı namizədlik disseratsiyası müdafiə etmişdi.[1] 1960-cı il oktyabrın 1-də ali məktəblərin elmi-pedaqoji işçilərinin sayı 2470 nəfərə çatmışdı ki, bu da 1950-ci ildə olduğundan 23 faiz çox idi. Bu illərdə pedaqogika və psixologiya üzrə ilk milli elmlər doktorları yetişdi.Əhməd Seyidov, Mehdi Mehdizadə pedaqogika üzrə doktorluq dissertasiyaları müdafiə etdilər.Az sonra onların elmi rəhbərliyi ilə xeyli gənc azərbaycanlı tədqiqatçı öz dissertasiyalarını uğurla müdafiə etdilər ki, dissertasiyada bu məsələyə xüsusi diqqət yetirilmişdir.

Dissertasiyanın üçüncü fəsli "**XX əsrin 60-80 - ci illərində ali pedaqoji təhsil yeni inkişaf mərhələsində**" adlanır. Fəslin ***"SSRİ-də ali pedaqoji kadr hazırlığının intensivləşdirilməsi. Təhsildə böhran"*** adlı ilk yarımfəslində keçmiş İttifaqda 60-80-ci illərdə ali pedaqoji təhsilli müəllim kadrları hazırlığının nəzəri və praktik məsələləri araşdırılır. Universitet və institutların bazasında pedaqoji ali təhsil müəssisələri və pedaqoji məktəb müəllimləri üçün ixtisasartırma kurslarının təşkili, elmi kadrların sayının artması, bir sıra elmi-tədqiqat məssisələrində laboratoriyaların yaradılması, elmi-tədqiqat işlərinin həcminin artırılmaşı, ali məktəblərarası, institut, zona və respublika elmi-metodik konfranslarının keçirilməsi, RSFSR Pedaqoji Elmlər Akademiyasının SSRİ Pedaqoji Elmlər Akademiyasına çevrilməsi, pedaqogika kafedralarının müəllimlərinin ixtisasını yüksəltmək üçün SSRİ Pedaqoji Elmlər Akademiyası nəzdində 200 nəfər kontingenti olan 4 aylıq müntəzəm fəaliyyət göstərən ali pedaqoji kursların təşkili pedaqoji kadr hazırlığını təkmilləşdirməyin mühüm şərti kimi təhlilə cəlb olunur.

***"Azərbaycanda ali pedaqoji təhsil müəssisələrinin diversifikasiyası. Pozitiv və neqativ meyllər"*** adlı ikinci yarımfəsildə 60-80-ci illərdə Azərbaycanda ali pedaqoji təhsil müəssisələrinin diversifikasiyası problemi nəzərdən keçirilir,bu sahədəki uğurlar təqdir edilir, yol verilən nöqsanların xarakterik xüsusiyyətləri araşdırılır. Əsaslandırılır ki, pedaqoji institutların bir çoxunda yeni ixtisasların açılması xüsusi əhəmiyyətə malik oldu, çünki, respublikanın xalq təhsili uzun müddətə kimi musiqi və nəğmə, təsviri

---

[1] Садыхов Ш.А., Азимов Г.С., Салахов М.Н., Кузница педагогических кадров. Баку: Азернешр, 1975, с.105

incəsənət, bədən tərbiyəsi, rəsmxət və əmək təlimi, ibtidai sinif müəllimləri ixtisaslarına kəskin ehtiyac hiss edirdi.

1972-ci ildə təşkil edilən APİ-də texniki fakültə respublikasızın ümumtəhsil və peşə məktəbləri üçün əmək təlimi müəllimlərin hazırlanmasında mühüm rol oynamışdır. Bu fakültə sonrakı illərdə H.Zərdabi adına KDPİ-də və Y.Məmmədəliyev adına NDPİ-də təşkil edildi. Respublikamızda ilk dəfə "musiqi və nəğmə" ixtisası üzrə müəllim kadrları hazırlığına 1980-1981-ci ildə başlandı. Bu ixtisas APİ-də təşkil edildi və bu peşəni yaxşı öyrənmək üçün müasir təchizatla təmin olunmuş 10 laboratoriya yaradıldı. 1971-ci ildən etibarən bu təhsil ocağında ilk dəfə olaraq ali təhsilli rəsm müəllimləri hazırlanmağa başlandı. "Rəsm, rəsmxətt və əmək" şöbəsi 1971-1981-ci illərdə ümumi texniki fənlər fakültəsinin nəzdində fəaliyyət göstərmişdir. 1981-ci ildə müstəqil bədii qrafika fakültəsi yaradılmışdır. Yüksək ixtisaslı rəsm, rəsmxət müəllimləri respublikanın ümumtəhsil məktəblərində müvəffəqiyyətlə işləməyə başladılar.[1] Bu fakültələrin genişləndirilməsi ona görə vacib idi ki, musiqi, nəğmə, rəsm, rəsmxət, bədən tərbiyəsi və əmək müəllimlərinin 66,9 faizinin hələ də ali təhsili yox idi. Bədən Tərbiyəsi İnstitutunda 1980-ci ilə qədər 6387 mütəxəssis hazırlanmışdır ki, bu da respublika məktəblərini tam təmin edə bilmişdir.

Müəllim kadrları hazırlığının keyfiyyətinin yüksəldilməsinin mühüm şərtlərindən biri ali pedaqoji məktəblərə gənclərin qəbulu və seçilməsinin təkmilləşdirilməsi idi. Ölkəmizdə ali pedaqoji təhsilin inkişaf problemləri üzrə sənədlər göstərir ki, ali pedaqoji məktəblərə gənclərin seçilməsi məsələləri 70-ci illərdə də xüsusi əhəmiyyət kəsb edirdi. Bu, bir sıra səbəblərlə bağlı idi: 1) müəllim kadrları hazırlığındakı çətinliklər, müəllim peşəsinin nüfuzunun aşağı düşməsi; 2) gənclərin bir hissəsinin qabiliyyəti olmadan ali pedaqoji məktəblərə daxil olması, sonradan məktəbdə işləmək həvəsinin olmaması; 3) ali pedaqoji məktəblərə tələbə qəbulunun təşkilində kənd məktəbləri üçün ixtisaslı kadrların formalaşması probleminin kəskinləşməsi; 4) müəllim kollektivlərinin feminizasiyası ilə əlaqədar olaraq pedaqoji məktəbə seçmə və qəbul işində oğlanların xüsusi çəkisini artırmaq.

***"60-80-ci illərdə Azərbaycanın ali pedaqoji təhsil müəssisələrində elmi-pedaqoji kadr potensialının inkişafı"*** adlı yarımfəsildə 60-80-ci il-

---

[1] Qurbanov A.M. Məktəb islahatı və pedaqoji institut probelmləri. Bakı: Maarif, 1985, s.80

lərdə Azərbaycanın ali pedaqoji təhsil müəssisələrində elmi-pedaqoji kadr hazırlığının kəmiyyət və keyfiyyətcə yüksəlməsini şərtləndirən amillər tədqiqata cəlb olunur. Əsaslandırılır ki, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 60-70-ci illərdə qəbul etdiyi bir sıra mühüm qərarların: "Elmi və elmi-pedaqoji kadrlar hazırlanmasını yaxşılaşdırmaq tədbirləri haqqında" 13 iyun 1961-ci il tarixli, "Elmi və elmi-pedaqoji kadrların hazırlanmasını yaxşılaşdırmaq haqqında" 16 noyabr 1967-ci il tarixli, "Elmi və elmi-pedaqoji kadrların attestasiyasını daha da təkmilləşdirmək tədbirləri haqqında" 18 oktyabr 1974-cü il tarixli qərarların həyata keçirilməsi əsasında respublikanın ali məktəbləri üçün elmi-pedaqoji kadrların hazırlanması keyfiyyət və kəmiyyətcə yeni pilləyə qalxmışdı.

Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev avqust (1969-cu il) plenumunda çıxış edərək demişdir: "Biz aspiranturaya münasibəti kökündən dəyişməli, ona elmin tələbləri ilə, kadrlar hazırlanması vəzifələri ilə heç bir əlaqəsi omlayan mülahizələrə görə qəbul hallarını aradan qaldırmalıyıq. dissertasiya işlərinə tələbkarlıq xeyli artırılmalıdır, elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər".[1]

60-cı illərin əvvəllərindən başlayaraq ali məktəblərin nəzdində aspiranturalara qəbulun sayı xeyli artdı.

Ali pedaqoji məktəblərin yüksək ixtisaslı mütəxəssislərlə komplektləşdirilməsi həm əvvəllər, həm də 60-70-ci illərdə dövlət və hökumətin diqqət mərkəzində olmuşdur. Pedaqoji kadrların seçilib yerləşdirilməsini və hazırlanmasını yaxşılaşdırmaq tələbi pedaqoji institutların qarşısında qoyulan ən yüksək tələbələrdən biri olmuşdu.

60-70-ci illərdə Azərbaycanın ali pedaqoji məktəblərində müəllimlərin ştat sayı nəzərə çarpacaq dərəcədə artmışdı, bu da ali pedaqoji təhsilin sürətli inkişafını sübut edir. Əgər 1961-ci ildə APİ-də 300 nəfər müəllim işləyirdisə, 1971-ci ildə onların sayı 704 nəfərə çatdı, yəni 2,5 dəfədən çox yüksəldi.[2] H.Zərdabi adına KDPİ-də 1966/67-ci tədris ilində 177 nəfər müəllim işləyirdisə 1974/75-ci tədris ilində onların sayı 302 nəfərə qədər yüksəlmişdi. M.F.Axundov adına rus dili və ədəbiyyatı pedaqoji institutunda 1964/65-ci tədris ilində 297 müəllim işləyidrisə 1969/70-ci tədris

---

[1] Алиев К.Г. и др. Развитие высшей школы в Советском Азербайджане. Под общей ред. Алиева К.Г. Баку: Маариф, 1984, 414 с.

[2] Sadıqov Ş.A., Əzimov N.S., Salahov M.N. Azərbaycan Dövlət Pedaqoji İnstitutu, 50 ildə. Bakı: APİ, 1972, s.99

ilində onların sayı 534 nəfərə qədər artmışdır.[1] Ümumiyyətlə bu ali məktəblərdə elmi-pedaqoji kollektivlərin kəmiyyətcə artmasına baxmayaraq, keyfiyyətcə təmin edilməsində bir sıra qüsurlar özünü göstərmişdir.

60-cı illərdə yüksək ixtisaslı kadrlar – elmlər doktoru hazırlığında ciddi geridəqalma pedaqoji institutların kafedralarında özünü qabarıq surətdə göstərirdi. 1966/67-ci tədris ilinin məlumatına görə H.Zərdabi adına KDPİ-nin 16 kafedrasının müdirlərindən yalnız ikisi professor idi. Bu cür vəziyyət gələcək müəllimlərin hazırlıq keyfiyyətinin yüksəldilməsi işini nisbətən çətinləşdirirdi.

70-ci illərin ortalarına yaxın ali pedaqoji məktəblərdə işləyən ixtisaslı kadrların sayına görə respublikamız Gürcüstandan geridə qaldığı halda, Ermənistandan irəlidə gedirdi. 1973-cü il yanvarın 1-ə olan məlumata görə Gürcüstan pedaqoji institutlarında 60 elmlər doktoru, 533 elmlər namizədi işləyirdi (bu 41% təşkil edirdi). Azərbaycanda isə 46 elmlər doktoru, 613 elmlər namizədi çalışırdı (38,4 %). Ermənistanda isə müvafiq olaraq bu göstərici 37 və 290 (29,6%) nəfər təşkil edirdi.[2]

APİ-də 1971-1981-ci illər ərzində beş ixtisaslaşdırılmış müdafiə şurasında 167 namizədlik dissertasiyası müdafiə edilmişdir. Pedaqoji institutların əməkdaşları həmin illər ərzində institutdan kənarda 24 doktorluq, 47 namizədlik dissertasiyası müdafiə etmişlər. İnstitut yalnız özü üçün yox, həm də Kirovabad, Naxçıvan, Stepanakert, Orta Asiya respublikaları, Şimali Qafqaz üçün də ixtisaslı kadr hazırlanmışdı

Ali pedaqoji məktəblərin professor-müəllim heyəti ixtisasartırmanı SSRİ Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında, SSRİ Pedaqoji Elmlər Akademiyası nəzdindəki ixtisasartırma institutunda və digər ali pedaqoji məktəblərdə keçirdilər.

Azərbaycan ali pedaqoji məktəb müəllimlərinin ixtisasının artırılmasında Azərbaycan Elmlər Akademiyası, ADU, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu və respublikanın pedaqoji institutlar böyük işlər görmüşlər.

Ali pedaqoji məktəblərdə kadr probleminin xüsusi tərəfi psixoloji-pedaqoji fənlər kafedrasında elmi-pedaqoji kollektivin formalaşması

---

[1] Məhərrəmov Ə. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1961-1981-ci illər), Bakı: ADPU, 1998, s.44

[2] Парачин Ф.Г. Педагогическое образование в СССР. М.: Педагогика, 1975, с.223

olmuşdur. Azərbaycanın ali məktəblərində pedaqogika-psixologiya kafedraların müəllimlərinin keyfiyyət tərkibini xarakterizə edən sənədlərin təhlili göstərir ki, yüksək ixtisaslı mütəxəssislərlə təminat burada minimum səviyyədə olmuşdur. 70-ci illərə qədər hökm sürən belə vəziyyət məzunların hazırlıq keyfiyyətinin səviyyəsini ciddi surətdə aşağı salırdı. Çətinliklər ən əvvəl ondan ibarət idi ki, 50-ci illərin ikinci yarısından başlayaraq bütün SSRİ üzrə namizədlik və doktorluq dissertasiyasının müdafiəsinin intensivliyi azaldı.

Ölkənin iki nəhəng pedaqoji institutunda – V.İ.Lenin adına Moskva Pedaqoji İnstitutu və A.İ.Gertsen adına Leninqrad Pedaqoji institutlarında ali pedaqoji məktəblər üçün pedaqogika və psixologiya müəllimləri hazırlayan xüsusi fakültələr açılmışdır. Bütün bu tədbirlər pedaqogika və psixologiya kafedralarında elmi-pedaqoji kollektivlərin formalaşması problemini daha müvəffəqiyyətlə həll etməyə təsir göstərdi. Bu istiqamətdə Azərbaycan ali pedaqoji məktəblərində də müəyyən müsbət dəyişikliklər baş verdi. Respublikanın ali pedaqoji məktəbləri, mərkəzi ali pedaqoji məktəblərlə daha çox sıx elmi əlaqələr yaratmağa başladı, gənc müəllimləri məqsədli aspiranturaya fəal surətdə göndərməyə başladılar. Nəticədə 80-ci illərin əvvəllərində pedaqoji institutlarımızın psixoloji-pedaqoji fənlər kafedralarında elmi dərəcəli mütəxəssislərin sayı artdı və həm də keyfiyyətcə yaxşılaşdı.

1980-ci ildə respublikamızın pedaqoji institutlarında elmlər doktoru, professorlar 3,8 faiz, elmlər namizədi, dosentlər 35 faiz təşkil edirdi. 70-ci illərin sonunda respublikanın ali pedaqoji məktəblərində elmi dərəcəli mütəxəssislər (prof., elmlər doktoru) aşağıdakı kimi olmuşdur: APİ-də 5,8%; M.F.Axundov adına APRDƏİ-də 3,2% H.Zərdabi adına KDPİ-də 3,4% Y.Məmmədəliyev adına NDPİ-də 2,4%, Xankəndi Pedaqoji İnstitutunda 2,5 % təşkil edirdi. Yüksək ixtisaslı mütəxəssislər 57,8 faiz təşkil edirdi.

1970-ci ildən 1980-ci ilədək APİ-nin 153 aspirantı olmuşdur ki, bunlardan yalnız 26-sı müdafiə etmiş, yəni 17 faizi namizədlik dissertasiyası müdafiə etmiş, 45 faizi isə əsərlərini kafedraya müzakirə üçün təqdim etmişlər. Respublikanın başqa ali pedaqoji məktəblərində aspirant və dissertantlarla aparılan işin təşkili arzu olunan səviyyədə olmamışdı.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında konstitusiya Aktının qəbul edilməsi Azərbaycanda milli müstəqillik şüurunun güclənməsi ilə nəticələndi. 1993-cü il iyunun 15-də respublikada gərgin vəziyyətin aradan qaldırılması məqsədilə Heydər

Əliyev hakimiyyətə gətirildi. Müstəqilik dövrünün sükanı qüdrətli əllərə keçdi. Bu hadisə Azərbaycanın sosial-iqitsadi, siyasi və mədəni inkiaşfının rəhni oldu.

Dissertasiyanın dördüncü fəsli **"Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi"** adlanır. *"**Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsinin ilkin mərhələsi"*** adlı birinci yarımfəsildə XX əsrin 20- 30 – cu illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun müəyyənləşdirilməsi və təkmilləşdirilməsinin ilkin mərhələsi araşdırılır. Əsaslandırılır ki, həmin illərdə pedaqoji ali təhsil müəssisələrinin tədris planları bir neçə dəfə dəyişdirilmişdir. Bu elə bir dövr idi ki, həm ümumtıəhsil, həm də ali məktəblərin tədris planları tez-tez dəyişdirilirdi. Dissertasiyada həmin illər ali pedaqoji təhsilin məzmunu ilə bağlı axtarışlar dövrü kimi səciyyələndirilir, bütün tədris planları deyil, yalnız ciddi dəyişikliklərə məruz qalan, əlavələr və dəyişikliklər edilən tədris planları təhlilə cəlb olunur.

İlk ali pedaqoji təhsil müəssisəsində - Ali Kişi Pedaqoji İnstitutunda tədris müddəti 3 illik idi. Ali Kişi Pedaqoji İnstitutunda istifadə edilən tədris planı yeni təşkil edilən Ali Qadın Pedaqoji İnstitutuna da şamil edilmişdi. 14 sentyabr 1924-cü ildə Ali Pedaqoji İnstitut üçün yeni tədris planını təsdiq edildi. Bu tədris planı əvvəlkilərdən fərqlənirdi. Ali pedaqoji təhsil müəssisələri üçün tədris planı tərtib edilərkən əsasən RSFSR ali pedaqoji məktəblərinin təcrübəsindən və Azərbaycanda formalaşmaqda olan təcrübədən, milli təhsil quruculuğundakı uğurlardan istifadə olunurdu. 20-ci illərin əvvəllərində Azərbaycanın həm ümumtəhsil, həm də ali məktəblərində demokratik əhval-ruhiyyə güclü idi. Ciddi siyasiləşmə hiss olunmurdu. Avropa və Şərq alimlərinin elmi nəzəriyyələri olduğu kimi təqdim olunurdu. Marksizm-leninizm əsas ideologiyaya, metodologiyaya çevrilməmişdi.

O dövrdə həm Universitetin pedaqoji fakültəsində, həm də Ali Pedaqoji İnstitutda müəllim kadrları hazırlanırdı. Maraqlıdır ki, hər iki ali təhsil müəssisəsi eyni missiyanı yerinə yetirsə də tədris planları fərqli idi. Universitetin pedaqoji fakültəsinin tədris planının təhlili göstərir ki, o digər tədris planları ilə müqayisədə bir sıra üstünlüklərə malik idi. Belə ki, Universitetin pedaqoji fakültəsinin tədris planı respublikanın iqtisadi və mədəni tələbatları ciddi nəzərə alınmaqla tərtib edilmişdi. Bununla yanaşı, Universitetin pedaqoji fakültəsinin tədris planının ciddi nöqsanlarından biri ixtisas fənlərinin metodikasına kifayət qədər saatlarln ayrılmamasından ibarət idi. Metodika kursu tədris planında təlim-tərbiyə işinin ayrı-ayrı xüsusi məsələləri üzrə müxtəlif seminarlar şəklində salınmışdı. Pedaqoji

İnstitutda olduğu kimi Universitetin pedaqoji fakültəsində də pedologiya seminar şəklində tədris edilirdi. 1924-25-ci tədris ilində Universitetln, həmçinin pedaqoji fakültərin tədris planının strukturunda və bu planların özündə köklü dəyişikliklər edildi. Pedaqoji İnstitut öz fəaliyyətini dayandırıb Bakı Dövlət Universiteti ilə birləşdikdən sonra da pedaqoji fakültənin tədris planında dəfələrlə dəyişikliklər edildi.

Bakı Dövlət Universitetinin müstəqil ali məktəblərə bölünməsi və müstəqil Azərbaycan Pedaqoji İnstitutun yaranması ilə əlaqədar olaraq tədris planlarında köklü dəyişikliklər edildi. Yeni təşkil olunan Azərbaycan Pedaqoji Institutunun 1930-31-ci dərs ilindəki tədris planı əvvəlki tədris planlarından əsaslı şəkildə fərqlənirdi. Ali pedaqoji institutun tədris planının müsbət cəhəti nəzəriyyə ilə təcrübənin sıx əlaqələndirilməsi ilə bağlı idi. Demək olar ki, bütün fakültələrdə pedaqogika fasiləsiz pedaqoji təcrübə və ixtisasın tədrisi metodikası ilə vəhdətdə öyrənilirdi.

Tədris proqramları yalnız tədris fənninin həcmi və məzmununu deyil, həm də onun strukturunu, keçirilmə sistemini və ideya istiqamətini müəyyənləşdirir. Dissertasiyada pedaqogika üzrə proqramlar geniş təhlil olunur. Qeyd etmək lazımdır ki, 1933-cü ilə qədər İttifaq üzrə pedaqogikanın vahid proqramı yox idi. Bu proqramlar pedaqoji institutların pedaqogika kafedraları tərəfindən tərtib edilirdi. 30-cu illərin ikinci yarısından başlayaraq tədricən psixologiya, pedaqogika və metodikanın tədrisinin sistemi yaradıldı.

XX əsrin 20-ci illərində Azərbaycanda müəllim kadrları hazırlığında ən mühüm problemlərdən biri də dərslik problemi idi. Əvvəllər belə bir təcrübə olmadığından dövrün tələblərinə cavab verən dərsliklərin hazırlanması olduca çətin bir iş idi. İlk vaxtlar rus alimlərinin dərsliklərindən istifadəyə üstünlük verilirdi. Ali Pedaqoji İnstitutda oxuyan tələbələrin böyük əksəriyyəti rus dilini bilmirdi. Pedaqogika və psixologiyaya aid dərsliklərin hazırlanması gələcək müəllimlərin peşə və ixtisas hazırlığında mühüm rol oynaya bilərdi.bu işin əsas ağırlığını Türkiyədən dəvət edilən professor X.Fikrət, Bakı Dövlət Universitetinin pedaqogika kafedrasının müdiri B. B. Komarovski, A.O.Makovelski, A.Əfəndizadə (Azaqbəyli), Mühiddin daşımalı oldu. Onlar pedaqogikaya, psixologiyaya və pedalogiyaya aid dərs vəsaitləri yazdılar. Yarımfəsildə X. Fikrətin "Tərbiyə və tədris tarixi", B.B.Komarovskinin "Pedaqojinin ümumi əsasları",[1]

---

[1] Fikrət X. Tərbiyə və tədris tarixi. Bakı: Azərnəşr, 1926

A.Əfəndizadənin "Fənni tərbiyə",[1] Mühiddin "Psixologiya", S.Xəlilovun "Pedaqogika tarixi" adlı [2] dərs vəsaitləri haqqında geniş məlumat verilir.

Fəslin ikinci yarımfəsli "*XXəsrin* ***40-50-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi"*** adlanır. Burada əsaslandırılır ki, keçən əsrin 40-50-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi prosesi davam etdirildi. 1936-37-ci dərs ilinin tədris planlarının əsasını təşkil edən prinsiplər sonrakı illərdə də saxlanıldı, universitetin tədris planlarında pedaqoji fənlərin tədrisi genişləndirildi. Yarımfəsildə pedaqoji kadr hazırlığını həyata keçirən ali pedaqoji təhsil müəssisələrinin tədris planları müqayisəli şəkildə təhlil olunur, təkmilləşdirmənin əsas istiqamətləri müəyyənləşdirilir. Əsaslandırılır ki, universitetin tədris planlarında pedaqoji fənlərə ayrılan saatların ixtisarı məzunların pedaqoji və metodik hazırlığına mənfi təsir göstərirdi. Düzgün olmayan ixtisar siyasəti az sonra praktiki pedaqoji işdə özünü göstərdi. Universitetin tədris planlarından fərqli olaraq respublikanın pedaqoji ali təhsil müəssisələrinin tədris planları RSFSR- də tədrisi rus dilində olan pedaqoji ali məktəblərinin tədris planları əsasında tərtib edilmişdi.

RSFSR-in tədris planları ilə müqayisədə Azərbaycan pedaqoji ali təhsil müəssisələrinin tədris planlarında ciddi dəyişikliklər edilmişdi. Bu yerli şərait və təlim dili ilə bağlı idi.

Pedaqoji ali təhsil müəssisələrinin 1954-cü il tədris planları 1951-ci ildəki tədris planlarından aşağıdakı xüsusiyyətlərinə görə fərqlənirdi: bəzi ixtisaslar üzrə (tarix, coğrafiya) öyrənilən fənlərin miqdarı azaldılmadığı halda, Azərbaycan dili və ədəbiyyatı ixtisasında fənlərin sayı 41-dən 25-ə, təbiətşünaslıq və kimya fakültəsində 33-dən 29 -a endirilmişdi. Beləliklə, Pedaqoji İnstitut üzrə fənlərin ümumi sayı 28 fənn azaldılmışdı ki,bu da ümumi fənlərin 13% -ni təşkil edirdi.

Pedaqoji ali təhsil müəssisələrinin 1954-55-ci tədris ilinin planlarında nöqsanların olmasına baxmayaraq onların gələcək müəllimlərin peşə - pedaqoji hazırlığı sahəsində tələblərin ödənuilməsi işində universitetin tədris planları ilə müqayisədə böyük üstünlüyə malik idi. Pedaqoji ali təhsil müəssisələrinin 1954-55-ci dərs ilinin tədris planlarında pedaqoji fənlərə xeyli yer ayrılmışdı. Bunu universitetlərin o vaxtkı tədris planları haqqında demək olmaz. Bundan əlavə universitetlərin tədris planlarında pedaqoji fənlərin sayı hər fakültədə fərqli idi. Pedaqoji ali təhsil müəs-

---

[1] Əfəndizadə A. Fənni tərbiyə (Pedaqoji). Bakı: Azərnəşr, 1924
[2] Xəlilov S. Pedaqogika tarixi. I hissə, Bakı: Az.XMK-nın nəşri, 1939

sisələrinin tədris planlarında pedaqoji fənlərə ayrılan saatların miqdarı universitet tədris planlarındakına nisbətən 2-3 dəfə çox idi. O dövrdə Universitetin məzunlarının təqribən 80%-nin orta məktəbdə müəllim işlədiyini nəzərə alsaq bu halı normal hesab etmək olmaz. 1957-58-ci dərs ilində ali pedaqoj təhsil müəssisələrinin tədris planlarında ciddi dəyişikliklər edildi. 1954-ci ilin tədris planlarından fərqli olaraq pedaqoji ali təhsil müəssisələrinin 1957-58-ci dərs ilindəki tədris planlarından məktəb gigiyenasına ayrılan saatların miqdarı 36 saata qədər artırıldı.

Bu illər pedaqoji ali təhsil müəssisələrinin tədris planlarında pedaqoji, tədris-sahə (çöl) və istehsalat təcrübəsinə xeyli yer ayrılmışdı.

1957-58-ci dərs ilində universitetin tədris planlarında da köklü dəyişikliklər edildi. Universitetdə tələbələrin pedaqoji və metodiki hazırlığının böyük əhəmiyyət kəsb etməsini nəzərə alaraq 1957-58-ci dərs ilində SSRİ universitetlərinin nümunəvi tədris planlarına bir sıra pedaqoji fənlər daxil edildi. Azərbaycan Dövlət Universitetinin tədris planlarına pedaqogika kursunun (bu kursun tarixi elementləri ilə) öyrənilməsi daxil edildi, tarix və filologiya fakültələrinə psixologiya kursu və həmçinin məşğələlərdən ayrılmaqla 6 həftəlik pedaqoji təcrübə artırıldı. Bundan əlavə bütün humanitar fakültələrdə təhsildən ayrılmamaqla 60 saat təcrübə müəyyənləşdirildi. Bir sıra fakültələrdə tələbələrin pioner düşərgələrinə göndərilmələri nəzərdə tutuldu.

Beləliklə, göstərilən tədris planlarından pedaqoji fənlərə pedaqoji təcrübə ilə birlikdə dərs vaxtının 12,7%-i ayrılırdı. Bütün bunlara baxmayaraq pedaqoji ali təhsil müəssisələrinin tədris planı ilə müqayisədə universitetin tədris planları pedaqoji fənləri az əhatə edirdi. Lakin şübhəsiz ki, universitetlərin mövcud olduğu bütün illər ərzində pedaqoji fənlərin səviyyəsi 1957-ci ildəki tədris planındakı qədər olmamışdı. Xüsusilə müharibədən sonrakı illərdə müəyyən dəyişikliklər edilən bu proqramlar keyfiyyətcə yaxşılaşdı və gələcək müəllimlərin pedaqoji hazırlığına əsaslı kömək etdi.

Yarımfəsildə ali pedaqoji məktəblər üçün nəzərdə tutulan dərslik və dərs vəsaitləri- prof. Ə.Seyidovun "Pedaqogika tarixi", M.Mehdizadə, M.Muradxanov, T.Əfəndiyev, İ.Vəlixanlının "Pedaqogika" kitablarının pedaqoji kadr hazırlığındakı yeri və rolu müəyyənləşdirilir.

Fəslin ***"XX əsrin 60-80-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi"*** adlı üçüncü yarımfəslində əsaslandırılır ki, 60-cı illərdə pedaqoji ali təhsil müəssisələrində yüksək ixtisaslı müəllim kadrlarının hazırlanması istiqamətində xeyli səmərəli işlər həyata keçirildi. Tədris planlarında və proqramlarında ciddi dəyişiklik

edildi. Gələcək müəllimlərin praktiki hazırlığının gücləndirilməsi məqsədilə pedaqoji və istehsalat təcrübəsinə ayrılan vaxt xeyli artırıldı. Əgər 1957-ci ilin tədris planında bütün təlim illəri ərzində pedaqoji təcrübəyə 18-19 həftə ayrılırdısa, yeni tədris planında 27-30 həftə ayrılmışdı. Bu bütün tədris vaxtının təqribən 20%-ni təşkil edirdi. Pedaqoji təcrübənin təhsildən ayrılmamaqla həyata keçirilməsi məqsədəuyğun hesab edildi.

Yeni tədris planlarına əsasən ictimai və pedaqoji-psixoloji fənlər əvvəlki həcmdə qaldı. Pedaqoji fənlərin tədrisi təkmilləşdirildi, xüsusilə psixologiya kursunda yaş psixologiyasının öyrənilməsi nəzərdə tutuldu. Fənlərin metodikasının öyrənilməsi pedaqoji təcrübənin başlanılmasına qədər yekunlaşırdı ki, bu da tələbələrin praktikaya qədər nəzəri hazırlığının yaxşılaşdırılmasına kömək edirdi.

ADU-nun 1959-cu ildəki tədris planında müəyyən dəyişikliklər edildi.Yeni tədris planı əvvəlki tədris planlarından xeyli fərqlənirdi. Bu tədris planlarında təlimin təcrübə ilə əlaqələndirilməsi xeyli gücləndirilmişdi.

1964-cü ildə universitetin tədris planlarına yenidən baxıldı. Yeni tədris planı 1959-cu ilin tədris planlarından bəzi fakültələrdə pedaqoji fənlərin ixtisar olunması ilə fərqlənirdi. Universitetdə pedaqoji fənlərə ayrılan saatların ümumi həcmi artırılsa da, pedaqoji institutlarla müqayisədə bu saatların miqdarı xeyli az idi. Universitetin məzunlarının 80%-dən çoxunun pedaqoji sahəyə işə göndərilməsini nəzərə alsaq həmin saatların azlığının müəllim kadrları hazırlığına mənfi təsir göstərməsi qənaətinə gəlməyə imkan verir. Həmin dövrdə pedaqoji institutların proqramlarında da dəyişikliklər edildi, yerli əhəmiyyət kəsb edən fənlərin yeni proqramları yaradıldı.

70-ci illərin əvvəllərində pedaqoji institutlarda yeni tədris planları və proqramları tətbiq edildi. Əsas fənlərlə yanaşı xüsusi kursların, seminarların, fakultativlərin də aparılması planlaşdırıldı. Yarımfəsildə 60-80-ci illərdə ali pedaqoji məktəblərdə istifadə olunan, gələcək müəllimlərin peşə hazırlığında mühüm rol oynayan M.Muradxanovun “Pedaqogika”, H.Əhmədovun 3 hissəlik “Azərbaycan pedaqogika tarixindən”, İ.Mollayevin “Azərbaycanda pedaqoji fikir tarixinə dair”, B.Əhmədovun və A.Rzayevin “Pedaqogikadan mühazirə konspektləri" adlı dərs vəsaitləri təhlil olunur.

Tədqiqat zamanı aşağıdakı **nəticələrə** gəlinmişdir.

1. XX əsrin 20-ci illərində Azərbaycanda yeni dövlət tipinin yaradılması nəticəsində xalqların əsrlər ərzində istək və arzularının – milli dilin, milli məktəbin, milli mədəniyyətin təşəkkülü və inkişafı üçün siyasi və

iqtisadi bazanın təməli qoyuldu. Sovet hakimiyyəti illərində Azərbaycanda ümumtəhsil məktəbi, orta ixtisas məktəbi və ali məktəb şəbəkəsi yaradıldı. Pedaqoji texnikumlar müharibədən əvvəl və sonra xalq maarif sistemi üçün ixtisaslı müəllim kadrları hazırlayan əsas müəssisələr oldu. İlk ali pedaqoji təhsil müəssisəsinin əsası qoyuldu və ilk dəfə olaraq müxtəlif ixtisaslar üzrə ali təhsilli pedaqoji kadrlar hazırlanmasına başlanıldı. Azərbaycanlı qadın ilk dəfə olaraq ali təhsil almaq, ali və ümumtəhsil məktəblərində müəllimlik etmək imkanına malik oldu, o fəal ictimai fəaliyyətə cəlb olundu.

2. Azərbaycanda yeni sovet təhsil sisteminin formalaşması prosesi başlanarkən birləşdirilmə və ayrılma prosesləri adi hal almasına baxmayaraq, hökumət ümumtəhsil məktəbini müəllim kadrları ilə təmin etmək üçün konkret addımlar atır, ali pedaqoji məktəbin tələbə kontingentini türkləşdirmək istiqamətində ciddi tədbirlər həyata keçirirdi. Sovet hakimiyyətinə sadiq olan müəllim kadrlarını formalaşdırmaq, köhnə kadrları öz tərəfinə çəkmək və onların xidmətlərindən faydalanmaq vəzifələri müəyyənləşdirildi. Mədəni quruculuğunu uğurla həyata keçirməklə yanaşı Sovet hakimiyyətinə sədaqətli müəllimlər ordusu formalaşdırmaq vəzifəsini dönmədən yerinə yetirən partiya və hökumət yeni təhsil sisteminin yaranmasına və tədricən inkişafına böyük əhəmiyyət verirdi. Bu sistemin bütün həlqələri üçün qarşılıqlı əlaqə, qarşılıqlı təsir və qarşılıqlı şərtlənmə xarakterik idi. Belə bir yeni təhsil sisteminin SSRİ-də, o cümlədən Azərbaycanda formalaşması sosializmin ən böyük nailiyyətlərindən biri idi. Xalq maarifi, o cümlədən ali pedaqoji təhsil sahəsində qazanılan ilkin nailiyyətlər təhsil sisteminin sonrakı inkiaşfı üçün möhkəm baza rolunu oynadı.

3. Azərbaycanda ali pedaqoji təhsilin perspektiv inkiaşfının və təkmilləşməsinin istiqamətləri partiya və hökumətin xalq təsərrüfatının bərpası haqqında qəbul etdiyi tarixi qərarların ayrılmaz hissəsi idi. Ümumtəhsil məktəbinin şəbəkəsinin inkişafı, icbari ibtidai, yeddiillik, səkkizillik təhsilin həyata keçirilməsi və ona müvafiq olaraq ali pedaqoji kadr hazırlığının kəmiyyət və keyfiyyət göstəricilərinin intensivləşdirilməsi təhsil sisteminin daim hərəkətdə, inkişafda və təkmilləşməkdə olan vahid orqanizm olduğunu göstərdi. 20-30-cu illərin təcrübəsi göstərdi ki, ali təhsili, o cümlədən ali pedaqoji təhsili və orta ixtisas təhsilini Xalq Maarif Komissarlıqlarının nəzarətindən çıxarıb xüsusi təsərrüfat orqanlarının sərəncamına vermək daha faydalı olardı. Amma bu sahədə ittifad hökumətinin atdığı addım öz müsbət nəticəsini vermədi və ali və orta ixtisas təhsili müəssisələri vahid mərkəzdən idarə olunmağa başlandı.

4. Azərbaycanda ali pedaqoji təhsildə baş verən diversifikasiya və birləşmə proseslərinin 20-60-cı illərdə geniş şəkil olmasının səbəbi həm

ölkənin sosial-iqtisadi və mədəni həyatının vəziyyəti ilə, həm də ali təhsil quruculuğunda respubilkanın hakimiyyət orqanlarının təcrübəsizliyi ilə əlaqədar idi. 60-cı illərdən sonra diversifikasiya prosesi qəti, düşünülmüş şəkil aldı və bunun nəticəsində ali pedaqoji ixtisaslar üzrə kadrların hazırlanmasına başlanıldı. Bu hadisə ali pedaqoji təmayüllü tədris müəssisələrinin sayının artmasına və coğrafiyasının genişlənməsivə və respublikanın ümumi mədəni mənzərəsinin dəyişməsinə öz təsirini göstərməyə başladı.

5. Ali pedaqoji məktəblərin təkmilləşdirilməsi prosesi davam etdirilirdi. Bu məqsədlə 1930-1931-ci illərdə universitetlərin pedaqoji fakültələrinə vaxtı ilə birləşdirilən təhsil müəssisəsi müstəqil ali pedaqoji institutlara çevrilir. Pedaqoji təhsil yeni ixtisaslar hesabına zənginləşir, ali təhsilli müəllimlər hazırlamaq işi müntəzəm genişlənir, ümumtəhsil məktəbinin belə mütəxəssislərlə olan təminatı yaxşılaşır. Müharibə dövrünün çətinliklərinə baxmayaraq ali pedaqoji məktəblər kadr hazırlığı sahəsində öz işlərini davam etdirirdilər.

6. Vətənin müdafiəsində minlərlə professor və müəllimlər, aspirantlar və tələbələr iştirak etdilər. Ali məktəb müharibə sınaqlarından şərəflə çıxdıı. Hərbi şərait ali məktəbin iş xarakterində ciddi dəyişikliklərin aparılmasını, tədirs planları və proqramlara yenidən baxmağı, yeni fənlərin, kadrların hazırlanmasında yeni ixtisasların və profillərin daxil edilməsini tələb edirdi. Öz ənənələrinə sadiq qalan ali pedaqoji məktəbin müharibədən sonrakı illərdəki işi əyani, qiyabı və axşam təhsilini inkişafı və təkmilləşdirilməsi ilə xarakterizə olunur.

7. Çətinilkləri aradan qaldıraraq, iş metodlarını təkmilləşdirərək Azərbaycan ümumtəhsil məktəbi və ali pedaqoji təhsili böyük nailiyyətlər əldə etdi. Ölkədə ümumi orta təhsili həyata keçirmək vəzifəsi qarşıda qoyuldu. Bu vəzifənin yerinə yetirilməsində ali pedaqoji təhsil müəssisələri mühüm rol oynadı. Müəllim kadrları hazırlamaqla yanaşı müəllimləri yenidən hazırlamaq istiqamətində böyük işlər görülməyə başlandı. Bununla yanaşı təhsilin məzmununu və təlim prosesini elm və texnikanın, mədəniyyətin müasir inkişaf səviyyəsinə qaldırmaq tələb olunurdu. Ali pedaqoji təhsilin praktikasına yeni tədris planlarının və proqramlarının tətbiq olunması ali məktəb kollektivlərinin daha yaradıcı işləməsinə kömək etdi. Ziyalıların yüksək təhsil səviyyəsi və siyasi şüurluluğu əsas şərtlərdən biri kimi tədris müəssisələrinin qarşısında qoyulmuşdu. Ali pedaqoji təhsilin təkmilləşdirilməsini ümumtəhsil məktəblərinin yeni növünə müvafiq hala salmaq, müəllimlərin ictimai-siyasi və peşə hazırlığını yüksəltmək, pedaqoji işçilərə olan tələbatla ali pedaqoji məktəblərin buraxılışı arasında olan fərqləri aradan qaldırmaq istiqamətində aparılırdı.

8. Ümumtəhsil məktəbinin inkişafı və ümumi orta təhsilin həyata keçirilməsi ali pedaqoji məktəbin inkiaşfını daha da sürətləndirmək tempini müəyyən etdi. Bəzi pedaqoji ixtisasların beş illik təhsil müddətinə keçirilməsi müəllimlərin hazırlıq səviyyəsini yüksəltməyə və peşə profilini genişləndirməyə kömək etdi. V-VII siniflər üçün kadr hazırlamaq məqsədilə 30-cu illərdə yaradılmış ikiilik müəllimlər institutları ləğv edildi. Bunun nəticəsində respublikanın bəzi şəhərləri professional tədris müəssisələrindən məhrum oldu.

9. Qiyabi və axşam təhsil formaları ilə ali təhsilli müəlilmlər hazırlamaq işi geniş vüsət aldı. Bu böyük və vacib işin nəticəsində respublikada ali təhsilli pedaqoji kadrlar hazırlamaq sahəsində göstəricilər artmağa başalyır. Nəhayət ali pedaqoji məktəblərin diversifikasiyası baş verir və bunun nəticəsində müxtəlif profili pedaqoji institutlar (xarici dillər, bədən tərbiyəsi) yaradılır, ölkənin mədəni xəritəsində yeni mərkəzlər meydana gəlir.

10. Sovet ali məktəbi quruculuğunda yüksək ixtisaslı kadrlar hazırlamaq sahəsndə onun daha da inkişafının və möhkəmləndirilməsinin aydın perspektivi müəyyənləşdirildi. Qəbul olunmuş planlara görə ali məktəbin qarşısında geniş xalq kütlələrinin istehsalat və sosial fəallığını səfərbər etməyi bacaran, xalq təsərrüfatı və tədris müəssisələrini texniki rəhbərlər, təşkilatçılar və müəllimlər dəstəsi ilə təmin etmək vəzifəsi qoyulmuşdu. Bu illərdə ali pedaqoji məktəbdə mütəxəssislər hazırlamaq praktikasına, tələbələrin öyrənmə fəaliyyətinə fəal təsir göstərən priyomlar və metodlar daxil oldu, onların müstəqil işinə metodik rəhbərliyin səviyyəsi yüksəldi. Ali məktəbin tələbələrinin sosial tərkibinin yaxşılaşdırılmasına xüsusi diqqət verilməyə başlandı. Ali məktəb tələbə heyətinin formalaşması, ixtisaslı kadrların hazırlanması sahəsində işin genişlənməsi ali tədris müəssisələrinin professor-müəlim heyətinin hazırlanmasının yeni, daha effektli formalarını axtarıb tapmağı tələb edirdi. Bu məqsədlə aspiranturanın işini yaxşılaşdırmaq və onu elmi-pedaqoji kadrların hazırlanmasının əsas formasına çevirmək üçün tədbirlər görüldü. Aspiranturanın genişlənməsi sayəsində ali məktəblərdə və elmi-tədqiqat müəssisələrində aspirantların sayı armtağa başladı. Ali məktəb sosializmin iqtisadiyyatının, mədəniyyətinin və ictimai münasibətlərinin təşəkkülünə və möhkəmlənməsinə, yeni ziyalıların formalaşmasına öz sanballı töhvəsini verdi. Doktoranturanın yaradılması, disseratsiya üzərində işi başa çatdırmaq üçün elmi işçilərin tədris və elmi müəssisələrə ezam edilməsi formasının tətbiqi yüksək ixtisaslı elmi-pedaqoji kadrları hazırlamaqda mühüm rol oynadı.

11. Ali pedaqoji təhsilin məzmununda baş verən dəyişikliklər müəllim kadrlarının hazırlanmasının ideya-siyasi, elmi və professional səviyyəsini yüksəltməyə kömək etdi. Tədris prosesi intensivləşdirildi, yeni metodlar və texniki təlim vasitələri geniş yayılmağa başladı. Müəllim hazırlığınn profili də genişləndi, yeni ixtisaslar: «Tarix və ictimaiyyət», əlavə «Sovet dövləti və hüququnun əsasları», «Ümumtexniki fənlər və əmək», meydana gəldi, ali təhsilli ibtidai sinif müəllimlərinin hazırlanması xeyli genişləndirildi.

12. Ali pedaqoji məktəbin fəaliyyətində ən mühüm hadisə partiya və hökumətin ümumtəhsil məktəbinin şagirdlərinin təlimi və tərbiyəsini təkmilləşdirmək haqqında qərarları oldu. Həmin qərarlar müəllimlərin, birinci növbədə yeni pedaqoji işçilərin pedaqoji ustalığını əsaslı şəkildə yüksəltməyi nəzərdə tuturdu. Məktəb müəllimləri gənc nəslə geniş təhsil və tərbiyəvi təsir göstərməli, öz fənninin məzmunu və təliminin təşkilini şagidrlərdə yüksək idealları aşılamaq üçün bacarıqla istifadə etməli idilər. Ona görə də ali pedaqoji məktəbin perspektiv inkişafı müəllimlərin elmi və pedaqoji hazırlığının keyfiyyətini yüksəltməklə bağlı tələblərdən irəli gəlirdi. Hətta yuxarı siniflərdə dərs deyən müəllimlərin elmi hazırlığını universitet təhsili səviyyəsinə qaldırmağın zəruriliyi qeyd olunurdu. Azərbaycanda ali pedaqoji məktəbin keçdiyi tarixi yol yadda qalan pedaqoji və elmi nailiyyətlərlə əlamətdardır. Ölkəmizdə yeni vətəndaş cəmiyyətinin formalaşmasına öz töhfəsini verə-verə ali pedaqoji məktəb öz fəaliyyətini daim təkmilləşdirir.

13. Sosializm quruculuğu şəraitində mütəxəssislərin təhsil və tərbiyəsi ali məktəbdə kadr hazırlığının forma və metodlarını yeniləşdirməyi, ali məktəb pedaqogikasının prinsiplərini işləyib hazırlamağı və tətbiq etməyi tələb edirdi. Azərbaycanda ali təhsilin təşəkkülünün və inkişafının bu tarixi mərhələsində tədris müəssisələrini həm keyfiyyət, həm də kəmiyyət baxımından ali məktəbin tələbatlarını ödəməyə qadir olan professor-müəllim kadrları ilə təmin etmək lazım idi. Partiya və hökumətin fəaliyyəti nəticəsində ziyalıların qabaqcıl hissəsi sovet hakimyiyətinə xidmət etməyə başladı. Onlar Azərbaycana işləməyə gələn rus alimləri ilə birlikdə yeni ali təhsil sisteminin yaradılmasında fəal iştirak etdilər. Hökumətin diqqət və qayğısı sayəsində aspirantura yolu ilə Azərbaycan ali pedaqoji məktəbinin kadr potensialı getdikcə güclənməyə başladı. 60-80-ci illərdə bu potensial daha da gücləndi. Ölkədə həyata keçirilən mədəni inqilabın ən böyük nailiyyətlərindən olan milli məktəb quruculuğu nəticəsində keçmiş imperiyanın ucqarlarında ali məktəb şəbəkəsi yaradıldı. Orta ixtisas və ali təhsilli mütəxəssislər hazırlayan yeni mərkəzlər meydana

gəldi. Pedaqoji təhsil praktiki olaraq yenidən quruldu. Milli kadrların təhsil və tərbiyəsi üçün şəraitin yaradılması xalqımızın mədəni və iqtisadi inkişafı üçün güclü mənbə oldu.

14. Ali təhsilin inkişafının ən vacib yekunlarından Azərbaycanda öz xalqının formaca milli və məzmunca sosialist mədəniyyətinin inkişafında fəal iştirak edən, özünün zəngin pedaqoji təcrübəsini və ənənələrini toplayan milli ali məktəblərin yaradılması oldu. Ali pedaqoji məktəb müəllim hazırlığının keyfiyyətinə və elmi-tədqiqatların miqyasına və effektliyinə görə əvvəlki illəri ötüb keçdi. Böyük tarixi yol keçən ali pedaqoji təhsil 70-80-ci illərdə qabaqcıl tarixi zirvələrə qalxdı və ümumtəhsil məktəbinin sürətli inkişafı tempi üçün güclü vasitəyə çevrildi. Ali pedaqoji məktəblərin fəaliyyətinin ağırlıq mərkəzi xalq maarifinin kəmiyyət tələbatlarını ödəməkdən kadrların elmi-praktiki pedaqoji-metodiki hazırlığını yüksəltmək istiqamətində dəyişməyə başladı.

15. Cəmiyyətin ahəngdar inkişafında, onun intellektual potensialının formalaşdırılmasında, maddi sərvətlərin insan kapitalına ali təhsil mühüm əhəmiyyət kəsb etdiyindən xali təhsil sosial – iqtisadi və mədəni sahələrdə davamlı inkişafa təkan verən real qüvvə hesab edilir. Bu səbəbdən də son illərdə ali pedaqoji təhsilin məzmunu milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyasına uyğun yeniləşdirilmiş, bu təhsil pilləsində əsaslı islahatlar aparılmış, ölkənin ehtiyaclarına uyğun rəqabətə davamlı kadr hazırlığı və insan kapitalının formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Tədqiqatın məzmunu, əsas elmi idealarıvə alınan nəticələri inddiaçının nəşr etdirdiyi aşağıdakı **əsərlərdə** öz əksini tapmışdır.

1. Pedaqoji təcrübə müddətində tələbələrin orta məktəb şagirdləri ilə pedaqoji peşəyönümü işinə hazırlanması // Pedaqoji peşəyönümünün aktual problemləri, Bakı:ADPU, 1993, s.
2. Ali pedaqoji məktəblərdə «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» kursunun tədrisi məsələləri // Ali pedaqoji məktəblərdə humanitar və ictimai elmi-tədqiqi və tədrisi məsələləri, Bakı: ADPU, 1996, s.154
3. Azərbaycan pedaqoji fikrində müəllim-tərbiyəçi şəxsiyyəti və ona verilən tələblər: Metodik göstəriş. Bakı: ADPU, 1996, 33 s.
4. Müəllim sosioloqun hüquqları və işinin xüsusiyyətləri // Pedaqoji tədqiqatlar, 1997, 2-ci buraxılış, s.25-28
5. Dərs və ona verilən müasir tələblər // Pedaqoji Universitet Xəbərləri, 2005, № 4, s.254-257
6. Azərbaycanda ali pedaqoji təhsilin inkişafında Pedaqoji Universitetin rolu (1920-1927-ci illər) / Gənc tədqiqatçıların

ümumrespublika elmi konfransının tezisləri. Bakı, 2010, Qafqaz Universiteti, 6-7 may, s. 355-357

7. Professoqram – müasir müəllimi xarakterizə edən model kimi / Pedaqoji fakültənin 50 illiyinə həsr olunmuş elmi-praktik konfransının materialları. Bakı, 2010, s.60-67

8. Məktəb müəlliminin şəxsiyyəti: tarixilik və müasirlik // Pedaqoji Universitet Xəbərləri, 2010, № 1, s. 381-385

9. Ali pedaqoji təhsil müəssisələrinin diversifikasiyası / "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji – psixoloji problemləri" mövzusunda beynəlxalq konfransın materialları, Naxçıvan, 2011, s. 54-55

10. Pedaqoji kadr hazırlığında diversifikasiya prosesi: şərait və zərurət // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2011, №1, s. 104-106

11. Кризис Азербайджанского высшего педагогического образования: взгляд в близское прошлое // Uzmu xəbərləri, Özbəkistan, 2011, № 2, s. 163-166

12. Система Азербайджанского высшего педагогического образования: проблемы и перспектиы // Научный журнал министерства образования и науки. Kazaxstan, 2011, № 2, s. 270-274

13. Высшее педагогическое образование Азербайджана 50-х годах XX века / Материалы международной научно-практической конференции «Современная тюркология: направления развития и актуальные проблемы». Almaatı, 2011, s.152-154

14. XX əsrin 70-80-ci illərində Azərbaycanda ali pedaqoji təhsilin problemləri // Pedaqoji Universitet Xəbərləri, 2012, №2, s.298-302

15. Ali pedaqoji təhsildə yenidənqurma ölkədə təhsil sisteminin modernləşdirilməsinin tərkib hissəsi kimi (XX əsrin 60-70-ci illəri) // Pedaqoji Universitet Xəbərləri, 2012, s.289-292

16. Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafı (1920-1991). Monoqrafiya. Bakı: Nurlan, 2012, 367 s.

17. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2012, №4, s.240-244

18. XX əsrin 70-80-ci illərində Azərbaycanda pedaqoji kadr hazırlığının intensivləşdirilməsi // Pedaqoji Universitet Xəbərləri, 2012, №4, s.269-272

19. Elmi-pedaqoji kadr hazırlığı ali pedaqoji təhsilin inkişafının mühüm şərti kimi / "Tətbiqi dilçiliyin müasir problemləri" mövzusunda

beynəlxalq elmi konfransın materialları, Bakı, 27-28 noyabr, 2012, s.156-158

20. Müəllimin hazırlığına verilən tələblər (XX əsrin əvvəlləri) // Azərbaycan məktəbi, 2013,№2, s.78-82

21. Становление и развитие высшего Азербайджанского высшего педагогического образования в Азербайджане в 1921-1991 г. // Науковой цосопис. Педагогические науки. Киев, 2013, с. 12-18

22. Развитие высшего педагогического образования в Азербайджане в 30-х годах XX века // «Мир образования – образование в мире», Научно-методический журнал, Москва, 2013, №1, s. 75-80

23. Heydər Əliyev və Azərbaycanda ali pedaqoji təhsilin inkişafı // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2013, №2, s. 180-183

24. XX əsrin ikinci yarısında Azərbaycanda ali peddaqoji kadr potensialının inkişafı // Pedaqoji Universitet Xəbərləri, 2013, № 1, s. 259-265

25. 1941-1945-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin inkişafı: tənəzzül və tərəqqi tendensiyası // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2013, № 1, s. 250-254

26. Azərbaycanda müəllim hazırlığı məsələlərinə dair // Azərbaycan məktəbi, 2013, №2, s. 78-82

27. Azərbaycanda ali pedaqoji təhsilin inkişafında Gəncə Dövlət Pedaqoji İnstitutunun rolu // Pedaqoji Universitet Xəbərləri, 2014, №1, s. 316-318

28. Azərbaycanda ali pedaqaoji təhsilin inkişafında Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun rolu // Bakı Qızlar Universiteti, Elmi əsərlər, 2014, s. 124-129

29. XX əsrin 20-ci illərində ali pedaqoji təhsil siyasətinin nəzəri və praktiki problemləri // Bakı Qızlar Universiteti, Elmi əsərlər, 2014, № 2(18), s.99-104

30. XX əsrin 30-cu illərində Azərbaycanda ali pedaqoji təhsilin yenidən qurulması və rayonlaşdırılması // Mütərcim, 2014, №1, s. 243-247

31. XX əsrin I yarısında Azərbaycanda ali pedaqoji təhsil yeni məzmunda // Pedaqoji Universitet Xəbərləri, 2014, № 3, 8 s.

32. XX əsrin 50-60-cı illərində Azərbaycanda ali pedaqoji təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili // Gəncə Dövlət Universiteti, Elmi xəbərlər, 2014, № 2, s.304-309

33. Динамика развития высшего педагогического образования в Азербайджане // Международный Совет по образовании взрослых, Санкт-Петербургский Ассосиации Международного Сотрудничества, Региональная Общественная Организаця «Дом Европа в Санкт-Петербурге», 2014, № 29, s. 173-180

34. Azərbaycanda elmi-pedaqoji kadr hazırlığında milli meylin güclənməsi (XX əsrin 40-50-ci illəri) / “Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları” mövzusunda konfransın materialları. Naxçıvan , 2014, s.209-211

35. Развитие высшего педагогического образования в Азербайджане во второй половине XX века // Реализация социальнх функций первичного образования в процессе полготовки социально – педагогических кадров. Санкт–Петербург-Баку, 2015, с. 108-110

36. Основные направления диверсификации и развития высшего педагогического образования в Азербайджане (1921-1991 гг) // “Annales – anali za istrske in mediteranske studije-series historia et sociologia” Thomson Web of Science, Slovenia, Koper, 2015, s.359-368

37. XX əsrin 60-80-cı illərində Azərbaycanda ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi // Bakı Qızlar Universiteti, Elmi əsərlər, 2015, № 1 (21) s.62-67

38. Azərbaycanda pedaqoji təhsilin məzmunun təkmilləşdirilməsi müəllim kadrları hazırlığını təkmilləşdirməyən mühüm şərti kimi (XX əsrin 60-cı illəri) / Müəllim-tələbə münasibətləri: pedaqoji və psixoloji aspektlər. Respublika elmi konfransının materialları. Sumqayıt, 27-28 oktyabr 2016, s. 203-205

39. Azərbaycanda ali pedaqoji təhsilin məzmunun təkmilləşdirilməsi istiqamətləri // Azərbaycan məktəbi, 2017, № 2 (678), s. 28-33

40. 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsil: tədqiqi və tədrisi problemləri // Tarix, coğrafiya, ictimaiyyət,

**Азадалиева Ш.М.**

# Диверсификация и тенденция развития высшего педагогического образования в Азербайджане (1920-1991-е годы) (Опыт историко-сравительного и системного анализа)

Во «Введении» диссертации обосновывается актуальные темы, излагается научная новизна исследования, определяется цель и задачи работы, представлены общие роложения, выдвигание на зашиту, обосновывается научно-практичная значимость диссертации.

В первой главе «Становление и развитие педагогического образования в Азербайджане в 20-30-е гг. XX века» выявляется теоритические и практические проблемы политики высшего педагогического образования в 20-30-е гг. союзного государства, объектывные и субъективные причины диверсификации и объединения на этапе становления учреждений высшего педагогического образования в Азербайджане. Анализируется первые попытки в области организации потенциала национальных научно-педагогических кадров в Азербайджане, исследуется первичный этап выявления и совершествования высшего педагогического образования в Азербайджане в 20-30-е гг. XX века.

Во второй главе диссертации «Проблема высшего педагогического образования в 40-50-е гг. XX века» рассматривается основные направления развития высшего педагогического образования в 40-50-е гг. прошлого столетия в бывшем Союзе, а также в Азербайджане; определяется особенности проявления усиленного национального стремления в подготовке научно-педагогических кадров, рассмотривается направления усовершествования содержания высшего педагогического образования.

В третьем главе диссертации, под названием «высшего педагогического образования на новом этапе развития в 60-80-е гг.», исследуются теоритические и практичиские вопросы подготовки учительских кадров с высшим педагогическим образованием в бывшем союзе в 60-80-е гг.

Также рассмотривается диверсификация высших педагогических образовательных учреждений, усовершествование содержания педагогического образования и проблема развития потенциала научно-педагогических кадров, отмечается характерные особенности допускаемых ошибок.

Полученные результаты обобшается в 15-ти положениях.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**Шируя Азадалиева ----**

# Диверсификация и тенденция развития высшего педагогического образования в Азербайджане (1920-1991-е годы) (Опыт историко-сравительного и системного анализа)

**5804.01 – общая педагогика, история педагогики и образования**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора наук по педагогическим наукам**

**Б А К У – 2 0 1 8**